Birləşmiş Ştatların Dövlət Departamenti/ Beynəlxalq İnformasiya Proqramları Bürosu

9 789952 200607

# Amerika Müsəlmanları





Kitabın üz qabığında şəkilləri verilmiş gənc qadınların hər ikisi müsəlmandır. Onlar çoxsaylı ərəb mənşəli amerikalıların yaşadığı icmada, Miçiqanda – Detroyt *(Michigan, Detroit)* yaxınlığında yaşayırlar. Onların hər biri inamlarını özünəməxsus tərzdə – biri müasir, digəri isə ənənəvi geyimləri ilə ifadə edir. Burada – basketbol meydançasında onlar çılğıncasına yarışırlar. Bu idman növü həm fərdi qabiliyyət, həm də bütün komandanın səyini tələb edir. Onlar bu kitabda digər kişilər, qadınlar və uşaqlarla birlikdə Amerika müsəlmanlarının gündəlik həyat tərzini nümayiş etdirirlər.

# Being Muslim in America

Global Publishing Solutions

| | |
|---|---|
| Elmi redaktor və layihənin koordinatoru | Nailə Süleymanova<br>İlahiyyat üzrə fəlsəfə doktoru |
| Tərcüməçi | Xumar Hüseynova |
| Redaktorlar | Elza İsmayılova<br>Xəzər Universitəsi filologiya üzrə fəlsəfə doktoru<br><br>Cabir Məmmədov |
| Kompüter dizayn | Zakir N. Yusifoğlu |
| Korrektor | Günay İsrafilova |

İngilis dilindən tərcümə

This project was funded through a Grant Agreement with
the Embassy of the United States of America.

Bu layihə Amerika Birləşmiş Ştatlarının səfirlyi ilə bağlanmış
qrant sazişi əsasında həyata keçirilib.

İlkin nəşriyyat Global Publishing Solutions tərəfinin icazəsi ilə
tərcümə edilmiş və nəşr olunmuşdur

© Khazar University Press, 2010
ISBN 978 - 9952- 20-060-7
Amerika müsəlmanları. - Bakı: Xəzər Universitəsi Nəşriyyatı, 2010. - 60 səh.
1. İslam. 2. Müsəlmanlar - ABŞ.
297.0973 - dc-22

Azərbaycan Respublikasında çap olunmuşdur

# AMERİKA MÜSƏLMANLARI

## Giriş
“Mən müsəlman ruhlu amerikalıyam” 2

## Fotooçerk
Amerikada həyat qurmaq 4

## Profillər
Gənc müsəlmanlar öz sözlərini deyirlər 30

## Mənbələr
Statistik portret 48
Yaxınlıqdakı məscidlər **52**
Mühüm tarixi hadisələr **56**
Biblioqrafiya 60

## Əlavə
Bilirdinizmi? Miniafişa

# "Mən müsəlman ruhlu amerikalıyam"


Əbu Patel

Mən Amerikanı xəyallarımda olduqca gözəl təsəvvür etdiyimə görə deyil, onun mənə – Hindistandan olan müsəlman övladına Amerikanın inkişafında iştirak etməyə, onun çiçəklənməsi yolunda izlər qoymağa, həyatında nə isə bir rol oynamağa imkan verdiyinə görə sevirəm.

Amerikada ilk məskunlaşan avropalılar ailəsinə mənsub Con Vinsrop *(John Winthrop)* bu fikri dəstəkləyir. Amerikanın həyatındakı rolunu həmvətənlərinə göstərərkən, Con onların cəmiyyətinin yüksəklikdə yerləşən və bütün dünyaya mayak olacaq bir şəhərə bənzəyəcəyini deyirdi. Bu ümidin kökü onun xristian olmasında idi. Şübhəsiz ki, Con öz şəhərini mərkəzində hündür qülləli kilsəsi olan bir şəhər kimi təsəvvür edirdi.Çoxmillətli olmamışdan əvvəl Amerika əsrlər boyu son dərəcə dini bir ölkə olmuşdur. Doğrudan da, biz Qərbdə dinə ən sədaqətli, eləcə də, müxtəlif dinlərə ən çox etiqad edildiyi bir ölkəyik. İndi yüksəklikdə olan şəhər kilsəsinin qülləsi müsəlman məscidlərinin minarələri, yəhudi sinaqoqlarının ibrani əlyazmaları, buddist sanqaların zümzüməsi, hindu məbədləri ilə əhatə

olunmuşdur. Bu, bir faktdır ki, hazırda Amerikada müsəlmanlar amerikalıların təsis və etiqad etdiyi Yepiskopal kilsənin üzvlərindən daha çoxdur.

Yüz il bundan əvvəl Afrika mənşəli görkəmli Amerika alimi U.E.B.Du Bois (*W.E.B. Du Bois*) əsrin əsas probleminin rəng problemi olacağı barədə xəbərdarlıq etmişdi. 21-ci əsrdə isə onun yerini dini inancların tutacağı ehtimal olunurdu. Mənim ölkəmi – Amerikanı, mənim dinimi – İslamı və Allahın himayəsində yaşayan bütün insanları narahat edən məsələ bunlar ola bilərdi: Müxtəlif dinə mənsub insanlar bir-biri ilə necə ünsiyyət quracaqlar? Kilsə qülləsi, minarə, sinaqoq, məbəd və sanqalar yüksəklikdə yerləşən yeni şəhərdə bölüşməyi öyrənə biləcəklərmi?

Düşünürəm ki, dözümlülük və hörməti özündə toplayan Amerika ənənəsi bu məsələnin həllinə xüsusi bir töhfə verəcəkdir.

Amerika daha çox başqa yerlərdən olan insanların böyük bir toplusudur. Bu insanlara özlərinə məxsus dəyərlər əsasında Amerika ənənəsinə töhfə verməyə və Amerika musiqisinə yeni notlar əlavə etməyə icazə verməsi Amerikanın böyüklüyüdür.

Mən müsəlman ruhlu amerikalıyam. Mənim ruhum qəhrəmanlıqlar, hərəkatlar və inkişaflardan yoğrulub və Allahın iradəsinə tabedir. Mənim ruhum Məhəmməd Peyğəmbərin (s.) təbliğ etdiyi İslamın əsas təlimlərini – təzaqa və tövhidi – haqqı, rəhmdilliyi və Tək Allahı dinləyirdi. Mənim ruhum orta əsrlərdə Şərqdən Qərbə yayıldı, məscidlərdə dua etdi, dövrün böyük müsəlman şəhərləri olan Qahirə, Bağdad və Kordovanın kitabxanalarında təlim aldı. Mənim ruhum Rumi ilə gəzib dolaşdı, İbn Rüşdlə Aristoteli oxudu, Nəsir Xosrovla Mərkəzi Asiyaya səyahət etdi. Mənim müsəlman ruhum müstəmləkə dövründə haqqa, ədalətə can atdı. Mənim ruhum Əbdül-Qaffar Xan və Xudai Xidmatqarsla birgə Hindistanın azadlığı uğrunda yürüşə çıxdı. Mənim ruhum çoxmillətli Cənubi Afrika uğrunda mübarizədə Fərid İshaq, İbrahim Musa, Rahid Ömər və Müsəlman Gənclər Hərəkatı ilə birgə əzəmətlə durdu.

Bir tərəfdən, mən qədim müsəlman baxışlarımı plüralizmə gətirirəm. Digər tərəfdən isə Amerikanın inkişafında iştirak edirəm. Ürəyimdə bir niyyətin həyata keçməsi üçün dua edirəm: Fərqli dini icmalara məxsus insanların yaşadığı yüksəklikdə yerləşən bir şəhərdə insanlar bir-birinə hörmətlə yanaşsın və ümumi məqsəd naminə bir yerdə çalışsınlar. Müxtəlif millətlərin birgə yaşadığı dünya qardaşlıq və ədalət ruhunda olsun. Elə bir əsr olsun ki, insanlar ümumi məqsədlərinə çatmaq yolunda birlikdə addımlasınlar.

*Müəllif Əbu Patel (Eboo Patel) İllinoys ştatının Çikaqo (Illinois, Chicago) şəhərində fəaliyyət göstərən Dinlərarası Gənclər Mərkəzinin icraedici direktorudur. O, dinlərarası hərəkatın lideridir.*

# Amerikada həyat qurmaq




*Abdül və Məcdə Əlsaadi (Abdul and Majda Alsaadi) Vol-Mart mağazasında. Dearborn, Miçiqan.*

Yer kürəsinin hər bir guşəsindən Amerikaya mühacirlər gəlmişlər. İnsanlar müxtəlif olsalar da, onların buraya gəlmə səbəbləri oxşardır: Bəziləri köhnə həyat tərzindən qurtulmaq, digərləri yeni həyat tərzi tapmaq üçün. Bəziləri zülmdən, bəziləri isə adətlərin qandalından, kasıbçılıqdan qurtulmaq və ya sadəcə, bəxtlərini sınamaq məqsədilə gəliblər. Onların çox böyük hissəsi 19-cu əsrdə Avropadan, 20-21-ci əsrlərdə isə Asiya, Afrika, Yaxın Şərq, Mərkəzi və Cənubi Amerikadan gəlmişdir.

Mühacirlər buraya ümidlə üz tuturdular. Çox vaxt onların ümidləri cüzi, ilkin təəssüratları isə qarışıq olurdu. Bu yeni amerikalılar yerləşdikləri yerdə onların işçi qüvvəsinə kəskin ehtiyac olduğunu görürdülər. Lakin bəziləri – yeni gələnlərin adət və ənənələrinə bələd olmayanlar, onlarla yad adamlar kimi davranır və onların nə vaxtsa əsl amerikalı olacağına inanmırdılar. Onlar yanılırdılar. Azadlıqları, dinləri, zəhmətkeşlikləri ilə hər bir mühacir dəstəsi Amerika cəmiyyətinə fərqli töhfələr verir, cəmiyyətimizi və mədəniyyətimizi zənginləşdirir, həmişə dinamiklik, inkişaf mənasını bildirən, bizi bir-birimizə bağlayan bir sözü formalaşdırırlar: ***amerikalı.*** Bu gün bu həm də amerikalı müsəlmanların hekayəsidir.





# Foto Gündəlik həyat Qalereya

1965-ci ildə immiqrasiya haqqında qəbul olunmuş yeni qanun yeni amerikalıların məlum axınında böyük dəyişikliklər yaratdı. Artıq milli mənşəyə görə müəyyən olunmuş bölgü kimlərin buraya gələ biləcəyini müəyyənləşdirmirdi. Onun yerini ailə münasibətləri və iş bacarıqları üzrə kateqoriyalar tutdu. Bu dəyişikliklə də Mühacirlərin sayı artdı. Cənubi Asiya və Yaxın Şərqdən ilk nəzərə çarpacaq dərəcədə böyük bir müsəlman qrupu Birləşmiş Ştatlara daxil oldu. Onlar 19-cu əsrdə gələn Amerika immiqrantlarından fərqlənirdilər. Amma bugünkü yeni amerikalılar da Amerikanın sosial, iqtisadi və siyasi həyatında öz yerlərini tapmaqda köhnə immiqrantların problemləri ilə üzləşdilər.

İki bacıya – Asiya və İman Bondaiyə (*Assia, Iman Boundaoui*) diqqət yetirin. Onların valideynləri Əlcəzairdəndirlər və qızlar İllinoysda, Çikaqo yaxınlığında müsəlman amerikalılar kimi boya-başa çatmışlar. Milli İctimai Radionun (*National Public Radio (NPR)*) verdiyi məlumata görə, Asiya və İman həm uşaqlar üçün olan "Naykloden" (*Nickelodeon*), həm də "Əl-Cəzirə" xəbərlər kanallarına baxaraq böyümüşlər. Onlar yemək üçün bəzən "Kentukki Tabakası" yeməkxanasını, bəzən isə sevimli falafel[1] restoranlarını seçirdilər.

1 Yaxın Şərqə aid lobyadan və ya digər paxlalı bitkilərdən hazırlanmış ədviyyatlı yemək. red.





*Üzbəüz səhifədə. Yuxarıda solda: Sədəf Butt (Sadaf Butt) hicabını səliqəyə salarkən. Aşağıda solda: Konqresin müsəlman üzvləri Vaşinqtonda Kapitolidə fasilə vaxtı. Bu səhifədə. Yuxarıda: Dizayner Bruk Səməd (Brook Samad) fabrik nümunələrini müqayisə edərkən. Sağda: Təhqiq Abbasi (Tahqiq Abbasi) özünün Nyu Cersidə – Yunion Sitidəki (Union City, New Jersey) parça dükanında.*

20 yaşlı Asiya Milli İctimai Radioya müsahibəsində demişdir: “Amerikada deyə bilərik ki, biz, hər şeydən əvvəl, müsəlmanıq. Mənə elə gəlir, bizi əsas fərqləndirən də budur. Lakin başqa ölkədə, məsələn, hər hansı bir müsəlman ölkəsində isə biz amerikalı olduğumuzu deyə bilirik”.

Onların hekayəsi həm diqqətəlayiqdir, həm də o qədər yox. Etnik və dini kombinasiyanın vəhdətindən yaranmış bu yeni nəsil özünü daha çox amerikalı hesab edir.

“Ateizmin qəbul edilməsi: Qərbə yollanan müsəlmanların əhvalatları” əsərinin müəllifi, İran mənşəli amerikalı Behzad Yağmaiyan (*Behzad Yaghmaian*) müşahidələrinə əsasən demişdi: “Amerika həm müsəlmanlar, həm də qeyri-müsəlmanlar üçün həmişə ümidlər məkanı olmuşdur. Hələ də onların buraya gəlməsinin səbəbi Amerikanın onlara öz ölkələrində tapmadıqlarını təklif etməsidir”.

Müsəlman amerikalılar ailə ənənəsini davam etdirirlər. Lakin onlar fərd olaraq, bir nəslə mənsub ölkəyə deyil, hər kəsə azadlıq, imkanlar və bərabər hüquqlar ideyası üzərində qurulmuş bir ölkəyə müqayisəedilməz dərəcədə böyük töhfələr verirlər.

Tarixçi Hasia Dinər (*Hasia Diner*) yazır: “Birləşmiş Ştatların tarixi boyunca hər bir əsrdə dünyanın müxtəlif guşələrindən qadınlar və kişilər Amerika təcrübəsinə meyil ediblər. Onlar həmin dövrdə Amerikaya yad olan əcnəbilər, dil, mədəniyyət və din təmsilçiləri kimi daxil olurdular. Zaman keçdikcə Birləşmiş Ştatların mədəniyyəti haqqında ideyalar da dəyişdi, mühacirlər və onların törəmələri etnik icmalarını qurmaqla yanaşı, eyni zamanda Amerikanın ictimai həyatında yaxından iştirak edərək, ölkəyə öz töhfələrini verirdilər”.











*Saat əqrəbi istiqamətində solda: Abdi Məhəmməd (Abdi Mohamed) Nebraskadakı (Omaha) baqqaliyyə dükanında axşam namazını qılarkən; ailə İnternetdə axtarış apararkən – Nyu York ştatı, Bruklin (New York, Brooklyn); Süsən Fəzlullah (Susan Fadlallah) Ramazanda iftar yeməyi hazırlayarkən. Mərkəzdə: Qəssab Nəhmi Mənsur (Nehme Mansour) halal əti ət maşınından keçirərkən – Miçiqan.*


You,
& Us




WAL★MART
MOHAMAD
Our People Make The... Difference
أنا اتكلم العربية
STORE MGR.
TRAINEE

Müsəlman amerikalılar Amerika standartlarına görə hədsiz dərəcədə müxtəlifdirlər. Onlar Amerikadakı digər mühacir qruplardan kəskin fərqlənirlər. Belə ki, müsəlman amerikalıları irqlərinə və millətlərinə görə müəyyən etmək olmur. Bu baxımdan, onlar kökləri İspaniyadan, daha çox Latin Amerikası ölkələrindən və Karib adalarından olan, ispan mənşəli amerikalılara daha yaxındırlar.

Əgər biz Cənubi Asiya, Yaxın Şərq, Cənub-Şərqi Asiya, Avropanın Balkan regionu, Afrika və az sayda, lakin artmaqda olan ispan müsəlmanlarını da əhatə etsək,  müsəlman amerikalılar daha da müxtəlif ola bilər.

Birləşmiş Ştatlarda əhalinin sayı insanların dinlərinə görə müəyyən edilmədiyindən müsəlman əhalinin sayı haqqında rəsmi məlumat yoxdur. Təxmini hesablamalara görə, onların sayı 2 milyondan 7 milyona qədərdir və ya daha çoxdur. Bunlardan 34 faizi Pakistan, yaxud Cənubi Asiya mənşəli müsəlmanlar və 26 faizi isə ərəblərdir.

Müsəlman amerikalıların 25 faizi isə yerli müsəlmanlar, əsasən də Afrika mənşəli amerikalılardır. Bu da müxtəlif mənşəli müsəlman amerikalıların tərkibcə daha da zənginləşməsinə gətirir. Başqa sözlə, müsəlman amerikalıların tarixi haqqında hekayə təkcə immiqrasiya və amerikalılaşmadan ibarət deyil. Bu hekayə Amerika tarixində ən mühüm mövzunun – irqi bərabərlik uğrunda mübarizənin bir hissəsidir.

Ölkənin hər yerində – həm şəhər mərkəzlərində, həm də şəhərdən kənar ərazilərdə məscidlər, müsəlmanlara mənsub sosial və mədəni qurumlar var. Birləşmiş Ştatların ilk İslam tarixi muzeyi – Beynəlxalq Müsəlman Mədəniyyəti Müzeyinə getmək istəyirsinizsə, Nyu York, yaxud Vaşinqtona səyahət barəsində düşünməyin. Bunun əvəzində, ərəb mənşəli amerikalıların sıx məskunlaşdığı Missisipiyə (*Mississippi*) – Ceksona (*Jackson*); Miçiqana – Dearborna gedin. Cənubi Asiya və





Foto **Karyera** Qalereya

*Saat əqrəbi istiqamətində solda: Doktor Maya Hammud (Maya Hammoud) ərəbcə yazdığı tibbi qeydlər kitabçasını əlində tutub; Nyu York şəhərinin illik "Ən Yaxşı Küçə Yeməyi Satıcısı" mükafatının qalibi Samiul Haqq Nurdur (Samiul Haque Noor); Məhəmməd Atvinin (Mohamed Atwi) kartında Vol-Mart dükanının adı iki dildə qeyd olunub.*




Afrikadan olan müsəlmanlar Nyu York – Nyu Cersi ərazisində seçilən və inkişafda olan bir icma qurublar. Böyük sayda somalililər Minneapolis və Minnesota ştatının St.Paul şəhərində məskunlaşıblar. Cənubi Kaliforniya ölkədə olan İran mənşəli amerikalıların ən çox məskunlaşdığı yerdir.

Bununla belə, bu etnik icmalar heç də monolit deyil. Dearbornda və digər yerlərdə yaşayan ərəblərin çoxu müsəlman deyil, xristiandır. Los Ancelesdə yaşayan iran mənşəli amerikalıların bir hissəsi isə yəhudidirlər.

Müxtəliflik haqqında bu cür ümumi danışılma vəziyyəti aydın təsəvvür etmək əvəzinə, daha çox çaşqınlıq yaradır. Onların nümayəndələrinin təcrübələrini öyrənmək daha yaxşı olardı.

Afrika mənşəli amerikalı şairə Maya Ancelou (*Maya Angelou*) deyir: "Biz bilməliyik ki, Amerikada müxtəliflik xalça üzərindəki saysız-hesabsız naxışlara bənzəyir. Biz başa düşməliyik ki, xalçanın bütün ipləri rəngindən, naxışından asılı olmayaraq, eyni dəyərə malikdir".

Məsələn, çikaqolu İman Bondai bilir ki, azadlığı sayəsində baş örtüyünü rahat bağlaya bilər. O, Fransada – Parisdə ali məktəb səyahətində olarkən özəl müsəlman məktəbində təhsil alan bir qrup qızla görüşünü xatırlayaraq deyir ki, Fransa qanununa görə dövlət məktəblərinə baş örtüyü ilə gəlməyin qadağan edildiyini biləndə o və dostları

*"Biz bilməliyik ki, Amerikada müxtəliflik xalça üzərindəki saysız-hesabsız naxışlara bənzəyir. Biz başa düşməliyik ki, xalçanın bütün ipləri rəngindən, naxışından asılı olmayaraq, eyni dəyərə malikdir".*

*–Maya Ancelou–*










*Saat əqrəbi istiqamətində solda: Milli Səhiyyə İnstitutunun (National Institute of Health) keçmiş direktoru Dr.İlyas A.Zərhuni (Dr. Elias A. Zerhouni) təqdimat edərkən; komik aktyor Meysun Zayid (Maysoon Zayid) uğurlu çıxışı zamanı; "Sakramento Kinqs"in hücumçusu Şərif Əbdur-Rəhim (Shareef Abdur-Rahim) rəqiblərini qabaqlayaraq topu atarkən; Serjant Maqda Xəlifə (Magda Khalifa) ABŞ ordusuna məxsus hərbi geyimdə.*

Foto **Xidmət** Qalereya











*Saat əqrəbi istiqamətində aşağıdan solda: Müsəlmanların könüllülüyə dəstək yürüşləri; gənc müsəlman fəalları icmalarının problemlərini həll etmək üçün fikir mübadiləsi edərkən; Faruq Əbulzəhəb (Farooq Aboelzahab) məsciddə müxtəliflik haqqında çıxış edərkən; din xadimlərinin sülh və dözümlülüyü qeydetmə toplantısı; Sara Əltantavi (Sara Eltantawi) mətbuat konfransında suallara cavab verərkən.*

bir-birinə baxmış və: "Allaha şükür ki, biz Amerikada yaşayırıq", – demişdir. İman Bondai Milli İctimai Radioya verdiyi bu müsahibəyə əlavə edərək: "Küçə ilə başı örtülü gedərkən, mən məktəbə daxil olanda yaylığımı açmalı olacağım haqda fikirləşmirəm", – deyə bildirmişdir.

Pakistanlı mühacir Nur Fatimə isə azadlığı başqa cür qəbul edir. Fatimə anlayırdı ki, amerikalılar sosial və dini seçimlərə şəxsi məsələlər kimi baxır. O, Nyu Yorka – Bruklinə köçəndən sonra başını örtməkdən imtina etmişdir. "Nyu York Tayms" qəzetinə müsahibəsində Fatimə demişdir: "Bura imkanlar məkanıdır. Burada hər kəsə bərabərlik verilir. Mən Birləşmiş Ştatlara özümü inkişaf etdirmək üçün gəldim. Bu, mənim dünyaya ikinci gəlişimdir".

Bu gün müxtəlif şəraitlərdə saysız-hesabsız İslam dininə mənsub amerikalılar öz varislərini formalaşdırdıqları kimliyin mühüm hissəsi kimi qəbul edirlər. Onlar formalaşdırdıqları kimliyin içərisində bu torpağın bütün vətəndaşlarına verilmiş azadlığı seçirlər. Bu imkanları müəyyənləşdirməklə özlərinin də amerikalı olduqlarını üzə çıxarırlar.

"Biz amerikalı müsəlmanların kimliyini vurğulayanda babalarımızın dəfn olunduğu yeri deyil, nəvələrimizin böyüyəcəyi məkanı nəzərdə tuturuq", – sözlərini Müsəlman İctimai Məsələlər Konsulluğunun icraçı direktoru Salam əl-Mərayəti (*Salam Al-Marayati*) Kaliforniyanın "Sakramento Bi" qəzetinə verdiyi müsahibəsində deyib.

Durmadan artan sayları, etibarları və təşkilatları ilə müsəlman amerikalılar biznes və təqaüd proqramlarından tutmuş, idman və incəsənətədək hər bir sahədə öz töhfələrini verirlər. Bu müxtəlifliklərin hekayəsi Nyu York



*İmam Haşim Rza (Imam Hashim Raza) Nyu York-da, Kolonidə (Colonie) yerləşən "Əl-Fatimə" İslam Mərkəzində Əfqanıstanda bombardman zamanı həlak olmuş, ABŞ ordusunun əsgəri Möhsin Nəqvinin (Mohsin Nagvi) cənazə namazını qıldırarkən.*




küçələrində satılan ədvalı halal xörəklərinə görə 2006-cı ildə "Ən yaxşı küçə yemək satıcısı" mükafatına layiq görülmüş pakistanlı Samiul Haqq Nurdan başlayaraq, 2002-ci ildən 2008-ci ilə qədər Milli Səhiyyə İnstitutunun direktoru olmuş əlcəzairli Dr. İlyas Zərhuniyə; "Nyusuik"in ("*Newsweek*") şərhçisi və redaktoru Fərid Zəkəriyədən (F*areed Zakaria*) aktyor və hip-hop musiqiçisi Mos Defə; "Hyuston Rokets"in (*"Houston Rockets"*) peşəkar basketbol ulduzu Dikembe Mutombodan ABŞ Konqresinin ilk müsəlman nümayəndəsi minnesotalı Keyt Elisona (*Keith Ellison*) qədər dəyişir.

Yeni nəsil müsəlman amerikalıları Amerika tibbini, elmini və ədəbiyyatını zənginləşdirirlər. Mama-ginekoloq Nəval Nur (*Nawal Nur*) Sudanda doğulmuş, Misirdə boya-başa çatmışdır. Qadınların sağlamlıq problemi ilə məşğul olan bu xanım öz sahəsinin pionerlərindəndir. Nəval Nur Massaçusets ştatının Boston şəhərində Afrika Qadınlarının Sağlamlıq Mərkəzinin yaradıcısıdır. O, 2003-cü ildə nüfuzlu *"MacArthur Fellowship"* təqaüdünə (Bu təqaüdü "Dahi təqaüd" də adlandırırlar) və 2008-ci ildə Stanford Universitetinin müsəlman alimlər üçün təsis etdiyi mükafata layiq görülmüşdür.

İran mənşəli amerikalı, Vaşinqton Universitetinin alimi Babək Pərviz (*Babak Parviz*) müstəqil yığılan və təmir edilən, çox kiçik cihazlar daxil olan nanotexnologiya sahəsində son dərəcə qiymətli nailiyyətlər əldə etmişdir. Bunlar nüvə və molekul səviyyəsində ultrakiçik elektron və bioloji tətbiqlərdir.

Hələ uşaq yaşlarında Suriyadan gəlmiş, yazıçı Moca Kef *(Mohja Kahf)* Amerika mədəniyyətini ümumi olaraq, amerikan müsəlmanlarını isə müşahidələrinə əsaslanaraq xəfif ironiya və bir qədər də sərt şəkildə öz poeziyasında ("Şəhrizaddan gələn e-məktublar") və İndianada nəşr olunan avtobio-

qrafik "Narıncı şərfli qız" *(The Girl in the Tangerine Scarf)* romanında təsvir etmişdir. Bu kitablar, xüsusilə də gənc müsəlman amerikalı qızlar arasında çox rəğbətlə qarşılanmışdır.

Moca Kef İnternet səhifələrində gənc müsəlman amerikalıların münasibətləri və seks haqqında açıq məqalələr də yazır. O inanır ki, "Malkom İksin (*Malcom X*) tərcümeyi-halı" və Xalid Hüseyninin (*Khaled Hosseini*) "Çərpələng uçurdan" (*The Kite Runner*) kimi əsərləri müsəlman-amerikan ədəbiyyatında bir janr kimi qəbul edilməlidir.

Texasda doğulmuş, burada böyümüş və hazırda Hyustonda təcili yardımda həkim kimi fəaliyyət göstərən Fədi Cəvdəhin (*Fady Joudah*) valideynləri fələstinlidirlər. O, Sərhədsiz Həkimlər Təşkilatının tərkibində Zambiya və Sudanın Darfur bölgəsində qaçqın düşərgələrində də xidmət etmişdir. Fədi Cəvdəh həm də gənc şairdir və "Yer kürəsi çardaqda" (*The Earth in the Attic*) toplusuna görə nüfuzlu Gənc Şairlərin Ənənəvi Yeyl Şeir müsabiqəsinin qalibi olmuşdur.

Şair və tənqidçi Luis Qlük (*Luiz Glück*) Fədi Cəvdəhın kitabının girişində yazır: "Bunların əksəriyyəti kiçik şeirlərdir. Lakin onların əzəmətli cazibəsi inkarolunmazdır. Atalar və qardaşlar peyğəmbərlərə, hipotezlər arzulara, mənzərənin adi detalları rəmzlərə və işarələrə çevrilir. Kitab fərqli, məntiqli və sərtdir. Onu bir kənara qoymaq, unutmaq qeyri-mümkündür".

11 sentyabr 2001-ci il hücumundan sonra Amerika azadlığının imkan verdiyi yeni, əsl Amerika İslamı meydana gəlir. Tribuna Tədqiqat Mərkəzinin (*Pew Research Center*) apardığı və digər sorğulara görə müsəlman amerikalılar orta hesabla digər müsəlmanlardan daha yaxşı təhsil almış, daha çox inkişaf etmişlər. Bundan başqa, bu hücumu planlaşdıranlar və həyata keçirənlər qeyri-amerikalıdırlar. Bu hadisələr digər



*Yuxarıda: Tələbələr və reklamçılar Pensilvaniyanın Filadelfiya şəhərində dini müxtəlifliyi dəstəkləyən divar rəsmləri çəkərkən. Sağda: Yasmin Əsfur (Yasmine Asfoor) Arizona ştatının Foeniks (Phoenix) şəhəri yaxınlığında, Mountain Pointe ali məktəbində (Mountain Pointe High School) idarəetmə dərsində suallara cavab verərkən.*



Foto Təhsil Qalereya









*Bu səhifədə. Saat əqrəbi istiqamətində solda: Miçiqanda Halə Hazimi (Hala Hazimi) (ayaq üstə) bacısı Zeynəb Qanimə (Zeinab Ghanem) riyaziyyat məsələsinin həllində kömək edərkən; Adnan Qasım (Adnan Kasseem) Nyu Meksikada namaz qaydaları dərsində; Tələbələr səyahət zamanı Missisipi ştatının Cekson şəhərindəki Beynəlxalq Müsəlman Mədəniyyəti Muzeyinə baş çəkərkən. Qarşı səhifədə. Saat əqrəbi istiqamətində yuxarıdan: Ali məktəbin basketbolçuları Miçiqandakı oyuna hazırlaşarkən; Şimali Karolinada Ruhi Brelvi (solda) və Həbah Sədaq (Hebah Sedak) basketbol paltarlarını oyun gününə hazırlayarkən; Leyla Alkalut (Laila Alkahlout) (öndə) və Saşa Xaffəd (Sasha Khaffed) Floridada basketbol üzrə keçirilən milli gənclər turnirində mübarizə zamanı.*






2
34
TRACT
1
32




SADEK
5



amerikalılar tərəfindən müsəlman amerikalılara qarşı şübhə yaratdı. Nəticədə isə bu, onların müəyyən dərəcədə təcrid olunmasına gətirib çıxardı. Təəssüflər olsun ki, bu cür şübhələr həm Birləşmiş Ştatlarda, həm də başqa ölkələrdə müharibə və kənardan hücum qorxusu olduqda yaranır. Lakin 2008-ci il dəhşətli qorxunun və şübhələrin ən zirvədə olduğu 2002-ci il deyil. Mahiyyət də çox mühümdür: Birləşmiş Ştatlarda hər bir mühacir qrupu müəyyən dərəcədə diskriminasiya və qəzəblə rastlaşmış, onun öhdəsindən gəlmişdir.

Məsələn, "Nyu York Tayms"ın yazdığına görə, bir neçə il əvvəl 11 sentyabrın nəticəsi olaraq, dəhşətli qorxunun hökm sürdüyü bir zamanda – biznes müəssisələri və məktəblərinin bağlandığı vaxtda Nur Fatimə Nyu Yorkdakı Pakistan icmasında yeni əldə etdiyi azadlığını qeyd edirdi. Fatimə buraya gəlməzdən əvvəl yerli biznesmen Moe Razvinin rəhbərliyi ilə "Kiçik Pakistan" yaradılmış, onun köməyi ilə ingilis dili və kompüter kursları başlanmış, icma mərkəzi açılmış, icma rəhbərləri ilə federal rəhbərlik arasında görüşlər təşkil edilmiş, münasibətlər yaxşılaşdırılmışdır.

"Tayms" (*The Times*) yazır: "Hər il Pakistanın Müstəqillik Günü münasibətilə keçirilən nümayiş Amerika bayraqları ilə bəzədilir. Bu, müsəlman mühacir icmasının millətlər ətrafında görünən transformasiyasıdır".

Terror hücumunun yaratdığı gərginliyi aradan qaldırmağın ən yaxşı yolu Birləşmiş Ştatlarda dinlərarası dialoqların genişləndirilməsidir.

"Hər dəfə yerləşdiyin məkanı başqa mədəniyyətə mənsub insanla bölüşəndə özün də bir şəxs kimi formalaşırsan, hadisələrə başqa nöqteyi-nəzərdən baxmağı öyrənirsən".









*Saat əqrəbi istiqamətində solda: Məhəmməd Hammud (Mohamad Hammoud)  Miçiqan ştatının Dearborn şəhərindəki Amerika İslam Mərkəzinin məscidində ibadət edir; Məryəm Motala (Mariam Motala)  (sağda) Kaliforniyadakı Houton İslam Mərkəzində (Islamic Center of Hawthorn) dua edir; Nyu Cersi ştatının Brunsvik şəhərində (Brunswick) balaca oğlan namaz qılanlara qoşulduğunu güman edir; Ohayo ştatının Parma şəhərindəki Kleveland İslam Mərkəzi (Islamic  Center of  Cleveland) 300-dən artıq dindarın evidir.*





*Yuxarıda. Üstdə: Uşaqlar axşam namazında; qadınlar Kaliforniyada "Əl-Rəhman" (Masjid Al- Rahman) məscidində namazda. Qarşı səhifədə. Yuxarıda: Müsəlmanlar Vaşinqton şəhərində Linkolnun abidəsi qarşısında ibadət edərkən. Aşağıda: Kişilər Şimalı Amerika İslam Cəmiyyətinin (Islamic Society of North America) illik yığıncağında – İllinoys ştatı, Çikaqo.*

Bu sözlər Corctaun Universitetinin (*Georgetown University*) ərəb dili və ədəbiyyatı ixtisası üzrə Doktorantı, Dövlət Departamentinin könüllü vətəndaş səfiri kimi xidmət etmiş Kərimə Davuda mənsubdur: Davud: "Müxtəliflik gözəllikdir", – deyə fikrini tamamlayır.

11 sentyabr hücumu, müsəlman amerikalıların ictimai və siyasi işlərdə daha da fəallaşmasına, problemlərin həllində daha yaxından iştiraklarına, qeyri-müsəlman təşkilatları ilə ittifaq qurmağa, dözümsüzlüyə və zorakılığa qarşı çıxışda qorxu elementlərinin aradan qalxmasında daha maraqlı olmalarına da təkan verdi.

Harvard Universitetindən olan redaktor və yazıçı Nafis Syed (*Nafees Syed*) *www.altmuslim.com* İnternet səhifəsində gedən müstəqil müzakirədə belə söyləmişdi: "Bu bir faktdır ki, üzərinə məsuliyyət götürməsi və siyasətə qoşulması amerikalı müsəlmanların Amerika sosial həyatının bir parçası olmasına eyni zamanda, onların vətənpərvərlik duyğularına təsir edir".



Prezident Con F.Kennedinin ifadəsini xatırladaraq Syed davam edir: "Məsələ təkcə Amerika müsəlmanlarının ölkənin siyasi həyatında iştirakının onlara necə kömək edəcəyində deyil, həm də Amerika müsəlmanlarının bu ölkəyə necə kömək edəcəyindədir".

Böyük bir toplum olaraq, Amerika müsəlmanlarının əksəriyyəti sünnilərdir, lakin burada xeyli sayda şiələr və sufi ənənələrinə sadiq qruplar da yaşayırlar. Bu müxtəlifliyə baxmayaraq, 2007-ci ildə nəşr olunmuş "Amerika İslamı: Dinin əsası uğrunda cihad" (*American Islam: The Struggle for the Soul of a Religion*) kitabının müəllifi Paul Baret (*Paul Barrett*) deyir: "Bu müxtəlifliklər başqa bir yerdə daha bariz üzə çıxardı, lakin onlar Amerika cəmiyyətini xarakterizə edən plüralizmin içərisində itibbatmışdır… Mühacirlərin çoxu ambisiyalı bir addım ataraq, qitələri və okeanları keçib köhnə dünyanın ziddiyyətlərindən qurtulmaq, mükəmməl təhsil almaq, iqtisadi vəziyyətlərini yaxşılaşdırmaq və uşaqlarının gələcəyini daha gözəl qurmaq məqsədilə





FOTO XÜSUSİ GÜNLƏR QALEREYA

buraya gəlirlər".

İnamın təkmil forması – qadınların rolunun daha da artması, yevangelist xristian kilsələrinə bənzər möhtəşəm məscidlərin sayının çoxalması müntəzəm inkişaf edən, bənzərsiz Amerika İslamının xüsusiyyətləri arasındadır.

"Mən müəyyən etdim ki, Amerikada müsəlmanlar öz inamlarını, etnik mənşələrini və milli ənənələrini çox müxtəlif formalarda məskunlaşdıqları torpağın dəyərləri ilə birləşdirirlər. Burada hər hansı bir qayda






yoxdur və əvvəlki mühacir qruplarında da belə bir qayda olmamışdır... Mən inanıram ki, müsəlmanların assimilyasıyası haqqında yalnız bir hekayə deyil, saysız-hesabsız hekayələr olacaqdır".



*Saat əqrəbi istiqamətində yuxarıdan: Qızlar Təklif mərasimində[1] Nəval Davudun (Nawal Daoud) əlində tutduğu Quranın altından keçərkən; Hafiz Əzübeyir (Hafiz Azzubair) insanları səsverməyə çağıran afişalar asarkən; Rutgers Universitetinin tələbəsi Liliya Həlvani (Lelia Halwani) (solda) və Nadia Şeyx (Nadia Sheikh) yaşadıqları Nyu Cersi ştatının Nyu Brunsvik şəhərində dindarlara məxsus yataqxanada qəbul zamanı (New Brunswick, New Jersey).*

1 *Həddi-büluğ yaşına çatmanın qeyd edildiyi gün. red.*











*Bu səhifədə. Saat əqrəbi istiqamətində aşağıda soldan: Halal hind toyuğu Şükranlıq Günü naharında süfrəyə verilərkən – Missuri ştati, St.Luis; qızlar Ramazan oruclarını xurma ilə açarkən – Nyu Cersi ştatı, Paterson; Fəvad Yaqub (Fawad Yacoob) Kaliforniyada milli ənənəvi mərasimdə (Waves ceremony) xeyir-dua edərkən; kişilər Ramazan bayramında qucaqlaşıb, bir-birini təbrik edərkən – Texas ştatı, Tiler. Qarşı səhifədə. Malayziyalı Tələbələr Assosiasiyası Tennessi ştatının Naşvil şəhərindəki (Nashville, Tennessee) Vanderbilt Universitetinin məzunluq mərasimlərini qeyd edərkən.*

"Mən müəyyən etdim ki, Amerikada müsəlmanlar öz inamlarını, etnik mənşələrini və milli ənənələrini çox müxtəlif formalarda məskunlaşdıqları torpağın dəyərləri ilə birləşdirirlər. Burada hər hansı bir qayda yoxdur və əvvəlki mühacir qruplarında da belə bir qayda olmamışdır... Mən inanıram ki, müsəlmanların assimilyasiyası haqqında yalnız bir hekayə deyil, saysız-hesabsız hekayələr olacaqdır".

*–Paul Baret–*



# AMERİKAN





# PROFİLİ









## Gənc müsəlmanlar öz sözlərini deyirlər

*Yuxarı sırada. Soldan: İmam Xalid Lətif (Imam Khalid Latif); kinorejissor Lena Xan (Lena Khan); rəssam Həba Amin (Heba Amin). Aşağı sırada. Soldan: Biznesmen Musa Şeyb (Moose Scheib); modelyerlər Nila Haşmi (Nyla Hashmi) və Fatimə Monkuş (Fatima Monkush); müğənni Kərim Salama (Kareem Salama); jurnalist Kiran Xalid (Kiran Khalid). Üzbəüz səhifədə. Ən sağda: Həba Aminin "Bədəvi qız"əsəri .*



# Rəssam Həba Amin

28 yaşlı müasir rəssam Həba Amin ağlı kəsəndən şəkil çəkir. Kollecin ilk illərində təhsil aldığı vaxtlara qədər, o, incəsənətin onun maraq sahəsi olacağını düşünmürdü. Həmin vaxtlarda riyaziyyat üzrə ixtisaslaşmış Amin ilk dəfə özünü memar kimi təsəvvür etmişdi. O indi Minneapolisdə yaşayır.

Amin Misirin Qahirə şəhərində anadan olmuş və orada boya-başa çatmışdır. Onun mərhum atası interyer dizayneri, anası isə Aminin bağça yaşlarından başlayaraq, 12 il təhsil aldığı özəl Amerika məktəbində inzibati işçi olmuşdur.

Orta məktəbi bitirəndən sonra Amin özəl, liberal incəsənət məktəbində – Minnesotanın St.Paul şəhərindəki Makalester Kollecində (*Macalester College*) təhsil almaq üçün ABŞ-a gəlmişdir. Təhsilinin üçüncü ilində Amin dərk etdi ki, onun könlü riyaziyyatda deyil, incəsənətdədir. 2002-ci ildə o, art-studiyada yağlı boya ilə iş üzrə bakalavr dərəcəsi aldı.

Amin Birləşmiş Ştatlarda yaşayarkən "Ərəb mənşəli amerikalı sənətkarlar ensiklopediyası"nın (*Encyclopedia of Arab American Artists*) redaktoru Fayiq Uveysə (*Fayeq Oweis*) bu kitabın onun "kənar müşahidəçi kimi çıxış etməsinə" və "əvvəllər nəzərindən yayınan, yaxud gördüyü" – ərəb və Misir mədəniyyətinin sənət əsərləri ilə daha yaxından tanış olmasına imkan verdiyini demişdi.

Amin deyir ki, bir neçə il onun işləri naxışlı tikmələr və muncuqlarla bəzədilmiş geyimləri ilə tanınan bədəvi qadınların portretlərindən ibarət olmuşdur.

"Avropa Birliyi bu sənəti qorumaq, onları maliyyələşdirmək və yaşlı qadınları bu bacarıqları gənclərə öyrətməyə təşviq etmək üçün proqram hazırlamışdı. Mən bununla maraqlandım və bu iş prosesinə şahid olmaq üçün müxtəlif tayfaların içərisində qaldım. Mən qum rəsmləri yaradan bədəvi sənətkarlardan dərs aldım".

Amin müxtəlif bədəvi tayfaları ilə vaxt keçirərkən, bu tayfaların həyat tərzi ilə onların sənətindən daha çox maraqlandığını dərk etmişdi.

"Mən onların çevrələrindəki insanlara, yurdlarına bağlılıqlarına mat qalmışdım. Çox təəssüfləndirici haldır ki, şəhər həyat tərzinin genişlənməsi və modernizasiya ilə bağlı onların mədəniyyəti itibbatmaqdadır", – deyə Amin öz fikirlərini bildirmişdir.



Amin bədəvi qadınların parlaq rəngli portretlərini şəhərüslublu həndəsi naxışlarla qarışdıraraq çəkməyə başladı. Bu barədə o deyirdi: "Şəhər həyatı bədəvi mədəniyyətini



sıxışdırdığı kimi, həndəsi naxışlar da rəsmləri üstələyir".

Nəhayət, Aminin "bədəvi" rəsmləri onu incəsənətin müxtəlif istiqamətlərinə, üçölçülü fiqurların quraşdırılmasına yönəltdi. "Portretlər üzərində işləyərkən anladım ki, əslində, məni şəhər formatında işlənmiş əsərlər maraqlandırır", – deyə o izah edirdi.

Qahirəyə növbəti səfərdə olarkən, Amin demişdi: "Mən burada çoxlu tərk edilmiş binalar gördüm – çox geniş ərazilər yarımçıq tikililərlə örtülmüşdü. O tikililərin fotoşəkillərini çəkdim və sonra onları araşdıraraq, şəkillərin əsasında bir sıra işlər görməyə başladım – Bunlar nə tikililər idi, niyə onlar tərk edilmişdi, onların insanlara təsiri..."

Şəhər anlayışı Amini quruluşdan daha çox duyğu anlamı kimi məftun etdi və bu da onu başqa bir aləmə apardı.

Amin deyir: "Müəyyən etdim ki, rəsmlər bir az məhduddur. Əslində, keçirdiyim duyğuları çatdıra bilmirdim. Daha praktik bir işin içinə girmək istəyirdim. Yaranan sənət duyğusal ideyalarımı ifadə etməyimə şərait yaratdı".

Aminin işi Minneapolisin, Nyu Yorkun və Vaşinqtonun bir çox qalereyalarında göstərilmişdir.

Amin öz İnternet səhifəsində yazırdı: "Mən şəhər infrastrukturuna cəmiyyətin inkişaf göstəricisi kimi baxıram. Şəhər planlaşdırılması cəmiyyətin siyasi vəziyyətini əks etdirir və məni insanların gündəlik həyatlarına maneələr və çətinliklər yaradan Yaxın Şərq şəhərlərinin infrastrukturunun araşdırılması maraqlandırır. Məni şəhər strukturunun fərdiyyətə üstün gəlməyə başlaması, binaların və insanların yan-yana olması əvəzinə, bir-birinin üstündə yerləşdiyi şəhərin fərdi səviyyədə təsiri maraqlandırırdı".

Daha sonra o yazırdı: "Bu yaradılanlar, sadəcə, insanı əhatə edənlərin onun davranışına mühüm təsirini vurğulamaq üçün nəzərdə tutulub".

Bu işlərindən başqa, Amin yaxınlarda tarixdə yeri olan müsəlman qadınlar haqqındakı "Müsəlman dünyasının görkəmli qadınları" *(Extraordinary Women from the Muslim World)* kitabının illüstrasiyasını da vermişdi.

Rəssam kimi uğur qazanmasına baxmayaraq, Amin yaşamaq üçün əsərlərindən asılı olmaq istəmir. O: "Mən əsərlərimi satmağı düşünmürəm. Bu da məni əsərlərimi digər insanların istəklərinə uyğun yaratmaq məsuliyyətindən azad edir. Mən 10 ildir ki, məktəbdə çalışıram və ona görə də akademik mühitdə qalmaq istərdim", – deyir.

Amerikada yaşamağa gəldikdə isə Amin demişdi:

*Yuxarıda: Həba Aminin "Kökün sarsılması" adlı əsəri.*

“Mən buranı sevirəm. İdeyalarımı açıqlamağa və onları istədiyim kimi ifadə etməyə imkan olan akademik mühitdə yaşamağı xoşlayıram”.



# İmam Xalid Lətif

25 yaşlı İmam Xalid Lətif artıq Nyu York Universitetindəki İslam Mərkəzinin direktoru və kapellanı[1], eyni zamanda, Nyu York Polis Departamentində də müsəlman kapellan kimi vacib liderlik məsuliyyətini öz üzərinə götürmüşdür.

Lətif deyirdi: “Universitet və Polis Departamenti bir-birindən kəskin fərqlənir. Hər iki Amerika qurumunda öz yollarını axtaran və sayları artmaqda olan müsəlmanlar çalışırlar. Bu baxımdan onlar bənzərdirlər”.

Lətifə görə dinlərarası dialoqlar aparmaq, icmaya xidmət etmək müasir və çoxmədəniyyətli dünyada yaşayan müsəlmanın fəaliyyətinin ayrılmaz hissəsidir. O deyirdi: “Bu əlaqələrin hər biri mənəvi kamillik üçün imkan yarada bilər”.

Sürətlə inkişaf edən Nyu York Universiteti İslam Mərkəzinin başçısı kimi Lətif fond yaratmaq niyyətindədir. O ümid edir ki, bu fond sayəsində tamştatlı heyət işə götürəcək və üç ildən beş ilə qədər çalışacaq aparıcı alimlər təyin edə bilər.

Bununla yanaşı, Lətif gənc və müxtəlif dindarların mənəvi lideri olduğunu heç vaxt unutmur. Əksəriyyəti tələbə olan gənclər haradasa problemlərlə üzləşdikdə öz mənəvi yollarını müsəlmanlar olaraq tapmağa çalışırlar.

2007-ci ildə o, Nyu York Polis Departamentinə ikinci kapellan təyin edilmişdir. Katolik, protestant və yəhudi din xadimləri ilə birgə xidmət edən Lətif dəfələrlə xəstəxanalarda yaralı qeyri-müsəlman zabitlərə və onların ailələrinə dəstək olaraq baş çəkmişdir.

Nyu Cersi ştatının Edison şəhərində böyümüş Lətifin valideynləri Pakistanda doğulmuşlar. O, məktəbdə oxuyan azsaylı müsəlman şagirdlərdən biri idi. Lakin seçdiyi həyat yolu onu tələbə məclisinin prezidenti, futbol və qısa məsafəyə estafet qaçışı komandasının kapitanı olarkən daha geniş liderlik mövqeləri axtarmağa sövq etdi.

## Dinə maraq

Lətif Nyu York Universitetində Yaxın Şərq və İslami elmlər üzrə təhsil almışdır. Dünyanın etnik və dini baxımdan ən çox rəngarəngliyə malik olan metropolitan hissəsində Lətif amerikalı müsəlman rolu və dini haqqında axtarışlarını davam etdirməklə öz yolunu tapdı.

O, İslamda da qeyri-adi dərəcədə müxtəliflik olduğunu anlamağa başladı. “Mən birinci il tələbəsi olarkən, kosasaqqallı və əlində sörfinq lövhəsi olan bir indoneziyalı ilə görüşdüm. Bu, mənim üçün ye-

1 Orduda və polisdə dini rəhbər. red.




*Yuxarıda: "Nyusvik" jurnalının üz qabığında müxtəlif həyat tərzinə mənsub Amerika müsəlmanlarının fotosu verilmişdir. Xalid Lətif başında təsək və əynində polis forması mərkəzdə solda dayanmışdır.*

nilik idi. Mən İslamı qəbul etmiş Afrika mənşəli amerikalılar, afrikalılar və onların övladları ilə də rastlaşdım".

Universitetdə təhsil aldığı illərdə Lətif dərslərindən əlavə, İslamı öyrənməyə də davam edirdi və onu ilk dəfə 18 yaşında xütbə söyləməyə razı saldılar. Lətif deyirdi: "Hər bir iş öz qaydası ilə gedirdi və məndən müntəzəm bu cür çıxışlar etməyi xahiş edirdilər".

2005-ci ildə Nyu York Universitetini bitirdikdən sonra Lətif Konnektikutdakı bütün dinlərə bərabər yer verilən Hartford Seminariyasında ölkənin qəbul etdiyi bu tipli yeganə proqram olan İslam Kapellanlığı Proqramına daxil oldu.

Təxminən həmin vaxtlarda, Lətif Nyu York Universiteti İslam Mərkəzinin ilk kapellanı kimi könüllü olaraq çalışırdı. O həm də "İbrahimin baxışı" (*Abraham`s Vision*) adlı müsəlman-yəhudi dini təşkilatında ziddiyyətlərin həllinə dair gənclər üçün keçirilən kursların həmmühaziräçisi idi.

2006-ci ildə Lətif Nyu Cersidəki Prinston Universitetinin ilk müsəlman kapellanı kimi yarımştat işə qəbul olundu. Tezliklə o, Prinston və Nyu York universitetləri arasında əlaqə yaratdı. Hər iki universitet ona daimi işlər təklif etdi. Lətif isə Nyu York Universitetinin İslam Mərkəzinin direktoru kimi fəaliyyət göstərmək təklifini qəbul etdi.

## Universitet kapellanı

Bir çox cəhətlərinə görə, Lətif müsəlman tələbələrin sayının artdığı, onların saysız-hesabsız beynəlxalq tələbələrlə birgə təhsil aldığı və kampuslarda müsəlman kapellanlara tələbatın böyük olduğu bir dövrdə bu sahənin pioneri oldu.

Lətifin ən böyük uğurlarından biri onun cümə namazındakı iyirmi dəqiqəlik xütbəsi idi. Dostu bu xütbənin yazılıb İslam Mərkəzinin İnternet səhifəsinə göndərilməsini təklif etdi.

Çıxışa reaksiya gözlənildiyindən daha güclü oldu. Bu İnternet səhifəsini ayda orta hesabla 15 min nəfər izləyir. Onun 40-50 müxtəlif ölkədən, xüsusilə İndoneziya və Malayziyadan dinləyiciləri var. O, avropalı məktəb müəllimlərindən və izləyicilərindən də təşəkkür ismarıcları alır.

Lətif bugünkü çoxmədəniyyətli dünyada özünün

dinlərarası xidmətini bir kapellan olaraq, vəzifəsinin əsas hissəsi kimi qiymətləndirir. Lətif deyir: “Bu iş bəzi vaxtlarda çox yorucu olur və həm vaxt, həm də gərgin iş tələb edir”.

O, İslam Mərkəzi və Nyu York Universiteti Yəhudi Bronfman Mərkəzinin üzvləri ilə Nyu Orleansa “Katrina” qasırğasından zərərçəkmişlərə köməyə getdiklərini qeyd edir.

Lətif deyir ki, müəyyən müddət bir yerdə yaşayıb-işlədikdən sonra onlar bir-birinə inamsızlığı aradan qaldırdılar və hamı başa düşdü ki, tələbələri dinlərinə və mənşələrinə görə “başqaları” deyə adlandırmaq olmaz.

O əlavə edir: “Bu, real, təsirli dəyişiklikdir və bu dəyişiklik cəmiyyətə daxil ola bilər”.

# Kinorejissor Lena Xan



Qızmar avqust günündə Los Ancelesdə Lena Xan “Pilot və cəsəd” (*The Aviator and the Departed*) kimi böyük Hollivud kinolarını səhnə avadanlıqları ilə təchiz edən şirkətin qrim-təchizat otağının rəflərini diqqətlə nəzərdən keçirir. Bu rəflər yalançı insan bədənlərindən tutmuş, bürünc Tay buddalarına qədər filmi ecazkar edən müxtəlif xırda detallar, tərtibatlar, maraqlı əşyalarla doludur. Yaşılaçalan yaylıqla başını bağlamış və sadə, ağımsov jaket geyinmiş Xan iki fut uzunluğunda ninja qılıncını qınından çıxarır və onu ürkək baxışlarla, bənizi qaçmış halda seyr edərək: “Bu yarayar”, – deyir.

O, gəncdir, qadındır, müsəlmandır, hindistanlı-amerikalıdır. Film institutunun məzunu, 24 yaşlı Lena Xanda kinorejissorlara xas cəhətlər olmasa da, ssenarilər yazır, qısametrajlı filmlər çəkir, musiqili videofilmlərə rejissorluq edir, “Crave” adlı restorana reklam çarxları hazırlayır (Reklamların birində ninja fırlanan samosanı[1] tullayır).

Xan “Bassem çalışır” (*Bassem is Trying*) adlı bir dəqiqəlik qısametrajlı yumoristik filminə görə beş min dollar məbləğində mükafat qazanmışdı. Bu filmdə mühitə uyğunlaşmağa çalışan müsəlman amerikalının maşınındakı radioda uca səslə hip-hop musiqisinə qulaq asması nümayiş etdirilir. Onun müsəlman ölkəsindən olan Kərim Salamanın eyniadlı musiqisi əsasında hazırladığı üç dəqiqəlik “Cənnət adlanan məkan” filmi “Bir millət” adlı müsəlman himayədarların maliyyələşdirdiyi film müsabiqəsində 20 min dollar məbləğində mükafat almışdı. Xan müxtəlif mənşəyə mənsub olan onlarla kişi və qadını dünyanın onları müsəlman amerikalılar kimi tanımasını istədiklərini ifadə edən əl ilə yazılmış plakatları tutduqları səhnəni qurmuşdu. Oradakı ifadələr olduqca müxtəlifdir. Məsələn, orada “Mən də “Victoria’s Secret”dən alış-veriş edirəm” kimi şıltaq ifadə ilə yanaşı, “Mənim bacım 11 sentyabrda həlak olub” kimi son dərəcə ciddi ifadə də var.

2007-ci ildə “Bir millət” müsabiqəsinin münsiflərindən biri, keçmiş peşəkar basketbolçu Kərim

1 Hind mətbəxinə aid tərkibində ədviyyalı tərəvəz və ya ət olan, yağda qızardılmış üçkünc piroq. red.











*Yuxarıda: "Bassem çalışır" filmindən kadr. Aşağıda: "Cənnət adlanan məkan" filmindən üç kadr. Qarşı səhifədə: "Bassem çalışır" filmi çəkilərkən.*

Əbdül-Cabbar "Cənnət adlanan məkan"a "gözəl kino dili" olduğuna görə yüksək qiymət vermişdir. Jurnalist Marian Pirl (*Mariane Pearl*) isə filmin "müsəlman əhalinin və bizim hamımızın canlı duyğularımızı yumorla ifadə etdiyini və tamaşaçıya rahatlıq gətirdiyini" bildirmişdi.

Xan deyir ki, "Cənnət adlanan məkan" filminin çəkilməsi çox böyük hadisə idi. Layihə belə bir sualdan başladı: "Əgər sən dünyada müsəlman olmayan hər kəsə nəsə deyə bilsəydin, nə deyərdin?"

O deyir: "Mən e-məktublar göndərdim, məscidlərə getdim, ağlıma gələn bütün əsas müsəlman İnternet xidmətlərindən istifadə etdim".

Xanın ilk aldığı cavab: "İslam mənə intihar düşüncəsini qadağan edir", – olmuşdu. Xan deyirdi: "Mən onda bildim ki, bu, mənim çəkmək istədiyim filmdir. Bu barədə heç nə düşünməmişdim. Mən müsəlman nümayəndələrə rejissorluq edirəm, amma düşünmürəm ki, onların hər birinin əvəzinə danışa bilirəm. Beləliklə, bu, mənim üçün ilk ipucu oldu. Mən 2500 cavab aldım, onları toplayıb ixtisar etdim və film çəkdim".

Film hazır olandan sonra Xan yüzlərlə e-məktub aldı. İnsanlar filmin onları ağlatdığını, onları ailə üzvləri ilə İslam haqqında müzakirələr aparmağa həvəsləndirdiyini, yaxud stereotiplərin yaratdığı divarları dağıtdığını yazırdılar.

Bu videofilm peşəkar qapıları Xanın üzünə açdı. O, sənədli filmlər rejissoru Morqan Spurlokla (*Morgan Spurlock*) görüşdü. Hollivudda nahar vaxtı Müsəlman İctimai İşləri üzrə Şuranın sədri onu baxımlı filmlərin rejissoru kimi tanıdığını bildirdi.

Los Anceles Kaliforniya Universiteti film məktəbinin məzunu Xan deyirdi: "Əgər mən müsabiqəyə

qoşulmasaydım, elə yerimdəcə sayacaqdım”.

Xan filmlə sosial-fəaliyyət forması kimi maraqlanmış. və onu həyatı üçün əhəmiyyətli hesab etmişdi. Ailə qurmağa hazırlaşdığına görə hər kəs onun brilyant qaşlı nişan üzüyü alacağını gözləyirdi. Xan deyir: “Mən brilyantdan – qanlı brilyantdan olan heç nəyi istəmirəm. Onlar, həqiqətən, zərərlidir. Valideynlərim mənə: “Sən niyə belə acizsən? Tez get, brilyant al, burada nə böyük iş var ki?” – deyirdilər. Lakin mən bunu, böyük iş hesab edirəm. Bu, sənə məxsus olanları başqalarına qurban etməyə hazır olduğunun yoxlanılması üçün bir sınaqdır”. Brilyantın əvəzinə isə Xan böyük mussanit qaşlı üzük seçdi.

O, çəkilişlərdə olarkən təbii şəraitdə böyümüş toyuqlardan hazırlanan yeməklərin verilməsini təkid edir. “Qardaşım həmişə mənə gülür və məni Amerika televiziyasında nümayiş etdirilən “Simpsonlar ailəsi” cizgi film seriyalındakı zəif, ağıllı qız Liza Simpsona bənzədərək “Liza Simpson” adlandırır”.

Xan Los Anceles Kaliforniya Universitetində siyasi elmlər və tarix üzrə magistr dərəcəsi alanda müşahidə etmişdi ki, Ruanda və Darfurdda törədilmiş genosidlər tələbələrin diqqətini bu mövzuda çəkilmiş filmi və ya aktyorların hadisəni canlandırmasını görəndən sonra cəlb etmişdir. O, “Mühasirə” və “Quzğunun enişi” kimi Hollivud filmlərində dəstəmaz və azanın terrorizmlə əlaqələndirildiyi təsvirlərə baxmaqdan da yorulmuşdu.

“Bunlar məni narahat edirdi. Odur ki, bütün bunlardan şikayət etmək əvəzinə bu sahənin içinə girib nə isə bir iş görmək qərarına gəldim. Filmlər hadisəni danışmağın ən yaxşı vasitəsi olduğundan mən sosial məsələlərə dair filmlər çəkmək istədim. Bu halda insanlar həqiqətən başqalarını dinləyirlər və həmin hadisələrin içərisində olanlara daha da yaxınlaşırlar”, – Xan deyirdi. O, film sahəsində magistr dərəcəsi almaq üçün Los Anceles Kaliforniya Universitetinə getdi.

Qrim-təchizat otağına qayıdaq. Xan ninja ulduzları olan qutunun içində nə isə axtarır. Lazım olan əşyaları tapandan sonra o, tozlu, qırmızı “Toyota Prius”na atılır və Hollivud təpələrini keçib Qərb İstehsalı Şirkətinə ninjalar üçün maska və kostyum axtarmağa gedir.

Ticari xarakterli ninja filmindən başqa, Xanın



gələcək layihələrinə prezident seçkiləri ilə əlaqədar ticari əhəmiyyət daşıyan bir sıra filmlər və Salamanın klipi də daxildir.

Onun hazırda çəkdiyi 40 dəqiqəlik şəxsi filminə gəldikdə isə o yalnız bunu dedi: “Onlar nə isə böyük və populyar bir film gözləyirlər. Ona gorə də mən bu işdə bir qədər gərginlik keçirirəm”. Artıq onun əfsunlayıcı bir film olması Xandan asılıdır.

Lena Xanın “Bassem çalışır” və “Cənnət adlanan məkan” filmlərinə YouTube.com-da baxa bilərsiniz.

# İş Adamı Musa Şeyb



Belə bir mənzərə kinolarda ola bilər. İmmiqrantların oğlu olan bu gənc yaxşı təhsil alır, sayılıb-seçilən hüquq fakültəsinə daxil olur və aparıcı hüquq firmalarından birində işləməyə başlayır. Bir gün o, anasının uzun müddət aşbaz işlədiyi restorana gəlir və öz əlcəklərini çıxararaq: “Ana, gedək evə, sən bir daha burada işləməyəcəksən”, – deyir.

Lakin bu, film deyil. Bu, hazırda girovlara görə minlərlə insanı evlərini itirmək təhlükəsindən xilas etmiş bir şirkətin başçısı, 28 yaşlı Musa Şeybin hekayəsinin bir hissəsidir.

O deyir: “Əsas iş insanlara evlərində qalmaqda kömək etməyi bacarmaqdır. Bu, mənim üçün ən həssas məsələdir”.

## Təhsil və iş

Şeyb Livanın paytaxtı Beyrutda doğulmuşdur. Müharibə dövrünün sarsıntıları və uşaqlıq illərinin qəribəlikləri onun erkən xatirələridir. Şeyb sonralar hüquq fakültəsinə sənədlərini verməsini xatırlayaraq yazırdı: “Bu təcrübələr… məndə biliyin izinə düşməyə və ədalətə sonsuz sevgi yaratdi”.

Onun altı nəfərdən ibarət ailəsi Birləşmiş Ştatlara köçəndə Şeybin 7 yaşı var idi. Ailə əvvəlcə Ohayonun Toledo şəhərində, sonra isə Miçiqanın Dearborn şəhərində yaşamışdır. Atası iflicin ən ağır formasından əzab çəkərkən, Şeybin anası restoranda bütün günü aşpaz işləməyə başladı.

“Anam heç vaxt şikayətlənməzdi. “Atan bunu edə bilməz, mən özüm işləyəcəyəm”, – deyər və çox cüzi maaşa bu ağır işi görərdi”, – Şeyb deyir. O, bizə diqqətimizi yalnız təhsilimizə yönəltməyimizi və “həyatımızın bu anında sizin təhsilinizə pul ödəmək imkanım olmadığına” görə təqaüd qazanmağa əmin olmağımızı deyirdi.

Şeyb Miçiqandakı Albion Kollecini müvəffəqiyyətlə bitirdi. O, burada Müsəlman Tələbələr Assosiasiyasını qurmuşdu. Sonra o, Nyu Yorkdakı Müsəlman Hüquq Tələbələri Assosiasiyasının İdarə Heyətinin üzvü olduğu Kolumbiya Hüquq Məktəbində təhsil aldı.

Şeybin işdə və təhsildəki amansız sıxıntılardan xilası yalnız idmanda, xüsusilə amerikan futbolunda idi. “Mən meydançada əvvəllər yaradılan dil, kasıblıq və irqçilik kimi maneələri aşdım”.

## Hüquq aləmi

Şeyb üçün hüquq fakültəsi bir dönüş oldu. “Hüquq fakültəsi ilə böyük şəhərin birləşməsi mənim üçün ciddi bir dəyişiklik idi. Kolumbiya indiyədək olduğum şəhərlərin içində ən rəqabətli mühiti olan bir şəhər idi”, – o deyir.

Lakin Şeyb mətanətlə dözdü və uğur qazandı. 2004-cü ildə Ərəb Amerika İnstitutu onu ictimai xidmətinə görə mükafatlandırdı. O, Nyu York Ali Məhkəməsi ədliyyəsində katib kimi xidmət etdi.

2005-ci ildə Şeyb Nyu Yorkun nüfuzlu “Proskayer

Rouz” (*Proskauer Rose LLP*) Məhdud Məsuliyyətli Tərəfdaşlıq (MMT) hüquq firmasında işləməyə başladı. Hətta o, korporativ dünyanın onun gələcək uzunmüddətli karyerasını təmsil etmədiyini bilsə də, burada topladığı biznes və hüquq məsələlərinə dair təcrübə və biliklərini yüksək qiymətləndirdi.

“Məni “Proskayer Rouz” MMT-yə gətirən mühüm faktorlardan biri onun dünya səviyyəsində tanınmış ən böyük yəhudi hüquq şirkəti olmasıdır. Məqsədim müxtəlif icmalarımız arasında körpü qurmaqdır”, – Şeyb deyirdi.



## Evləri qorumaq

2005-ci ilin oktyabrında hüquq fakültəsini başa vurduqdan sonra Şeyb coxdan bəri gözlənilən günün gəlib çatdığına qərar verdi. O, anasının uzun illər işlədiyi restorana gedib onu xeyirli səbəb üzündən işdən çıxacağı ilə muştuluqladı.

O deyirdi: “Valideynlərimiz bizim üçün çox şeyi qurban veriblər. Onlar Livandaki yaxşı həyatlarından bizə – uşaqlarına görə imtina etdilər. İstəyirəm ki, valideynlərim əziyyətlərinin hədər getmədiklərinə əmin olsunlar”.

*Yuxarıda: Musa Şeyb, ortada, hüquq fakültəsinin məzunluq mərasimini ailə üzviləri ilə qeyd edərkən.*

2006-cı ildə Şeyb öz işinə başlamaq, LoanMod.com-u qurmaq üçün düşünmədən doğma Dearborna qayıtdı. LoanMod mənzil ipotekası götürənlərlə banklar, yaxud ipoteka verən qurumlar arasında dönə-dönə danışıqlar apararaq, onların problemini heç birinin ziyan çəkməməsi əsasında həll edir.

İpoteka kreditinin verilməsində uğurlu dəyişikliklər etməklə – sadəcə, faizi cüzi azaltmaqla ailə öz evində qalır və bank girov mülkə nəzarət üçün böyük məbləğdə vəsait xərcləməkdən canını qurtarır.

Şeyb inanır ki, onun şirkəti ölkədə bu tipli ilk qurumdur. “Biz bu işdə birinciyik. İlk olaraq öz əmimə, sonra dostlara yardım etdim və anladım ki, bizim çox dayanıqlı iş modelimiz var”, – o deyir.

Şirkət ailələrə öz evlərini qorumağa imkan verən və bankları isə yüksəkməbləğli girov xərclərindən çəkindirən beş mindən artıq uğurlu danışıq aparıb. 2009-cu ilin sonuna qədər şirkətin 20 min kredit dəyişikliyi etməsi gözlənilir.

## Gələcəyə baxış

Şeyb xidmətdəki tələbin artımına görə işçilərinin sayını yüz nəfərdən çox etməyi planlaşdırır. Hökümət kredit və ipoteka xidməti göstərənləri məcbur edir ki, insanları girovlardan qurtarmaq üçün öz qaydalarını dəyişsinlər. Loanmod.com 19 min notarial ofislə şəbəkələnərək əlli ştatda çox yaxşı fəaliyyət göstərir. “Bizim vəkillər ev sahiblərini kredit proseslərini keçməkdə təlimatlandıracaqlar. Notariuslarımız isə onlara sənədləşmə işlərini elə mətbəx stolu üstündə həll etməkdə kömək edəcəklər” – Şeyb deyirdi.

“Həyatları üçün çox böyük maddi əhəmiyyəti olan şeyləri qorumaqda insanlara kömək ən böyük mükafatdır. Sən bir evi qoruyanda, bir qonşuya,

cəmiyyətə və bütünlükdə ölkəyə kömək etmiş olursan", – o əlavə etdi.

Şeybin öz evində də böyük dəyişikliklər olmuşdur: Qızı Sofiya Cun (*Sophia June*) 2008-ci ildə dünyaya gəlmişdir. Şeybin yarılivanlı, yarıamerikalı hindu olan xanımı Nataliya da onun kimi, Dearborn yaxınlığında boya-başa çatıb.

"Xoşbəxtəm... və heç şübhəm yoxdur ki, bəxtim gətirib. Özüm üçün aydınlaşdırdım ki, nə qədər çox çalışsam, o qədər də xoşbəxt oluram", – Şeyb deyirdi.



*Yuxarıda: Musa Şeyb xanımı Nataliya və qızı Sofiya Cun ilə birlikdə ailə portretində.*

# Modelyerlər Nila Haşmi və Fatimə Monkuş



Nila Haşmi 23, Fatimə Monkuş isə 25 yaşındadırlar. Bir çox oxşarlıqları ilə onlar bənzərsiz qadınlardırlar. Onlar Konnektikut ştatının paytaxtı Hartfordda yaxın rəfiqələr kimi böyümüşlər. Hər ikisinin atası Cənubi Asiyadan olan müsəlmanlar, anaları isə İslamı qəbul etmiş amerikalıdırlar.

İndi isə ikisi də müsəlman qadınların həm sadə, həm də dəblə geyim tərzinə uyğun gözəl paltarlar hazırlayır.

Onlar "Həvva Xurşid" adlı yeni geyim ticarət markası yaratmaq niyyətindədirlər. Dizaynerlərin düşüncələrində xüsusi bir bazar olsa da, onlar potensial müştərilərin əsas bazasını əldə edəcəklərinə inanırlar.

"Bizim geyimlər yalnız müsəlman qadınlar üçün nəzərdə tutulsa da, hər bir qadın onlarda çox gözəl görünəcək," – Haşmi deyir. O, yeni geyim ticarət markasını "25-34 yaşları arasında işləyən və fəal həyat tərzi keçirən qadınlar üçün amerikan geyimi" kimi təsvir

edir.

### Geyimlə bağlı çətinliklər

Haşmi və Monkuş ilk dəfə geyim dizaynı ilə yeniyetmə yaşlarından maraqlanmışdılar. Yayı Konnektikutda keçirsələr də, 1995-ci ildə – Haşminin 10 yaşı olanda ailəsi Pakistana köçmüşdü. (11 Sentyabr 2001-ci il terror hücumlarından sonra ailə daimi olaraq Birləşmiş Ştatlara geri döndü.)

“Biz geriyə qayıdan yay mən 13 yaşındaydım. Sanki nəhəng mədəniyyət sarsıntısı ilə üzləşmişdim. Gördüm ki, Pakistan və Amerika gəncliyinin mədəniyyəti necə fərqlənir. Valideynlərim daha sadə paltarlar geyinməyimi istəyirdilər, çünki mən böyüyürdüm. Mən başqa uşaqlar kimi gözəl geyinmək istəyirdim, amma oradakı dükanlarda mənə uyğun heç nə yox idi”, – Haşmi deyir.

Monkuşun da təəssüratları buna oxşardır. “Mənim geyimim üçün  hazır paltar tapmaq çox çətin idi”. Monkuş gülümsəyərək deyir ki, müsəlman qızlar sevdikləri stilə – üst-üstə paltar geyinməyə daha çox üstünlük verirdilər.

Hər ikisi – Haşmi və Monkuş tikməyi analarından öyrəniblər. “Anam mənə geyim nümunələrini izləməyi və eyni zamanda tamamilə fərqli geyimlər yaratmağı öyrətdi. Bu, tam mənim istədiyim bir şey idi. 16 yaşım olanda mən öz paltarlarımın hamısını özüm tikməyə başladım. Bu, Nila ilə kursa getdiyimiz yay idi”, – Monkuş deyirdi.

### Rahatlıq və geyim

Qadınların hər ikisi uyğun paltarlar üçün öz fərziyyələrindən istifadə edirlər. “Mən çox mühafizəkar bir ailədə böyümüşəm. Valideynlərim sadə geyim tərzinə üstünlük verirdilər. Tədricən məni rahat edən formanı özüm üçün müəyyənləşdirdim. Mən qısa və ya dar olmayan qısaqollu geyinəcəyəm. Hər kəsin özü üçün rahatlıq ölçüsü var”, – Haşmi izah edirdi.

Monkuşun münasibətinə görə, “əsas qaydalar deyil, onun nəyi doğru hesab etməsidir”. “Mən isə gəzməyə çıxarkən qolsuz, dar jilet və qısa paltar geyinmirəm. Bu, mənim üçün rahat deyil. Mən başımı 14 yaşımdan bəri bağlayıram”, – o deyirdi.

### Qarışıq ailədə böyümə

Nila Haşminin anası katolik kimi böyüyüb. Atası isə 1970-ci illərdə Pakistandan Birləşmiş Ştatlara gəlmiş və ABŞ vətəndaşı olmuşdur. “Anam ürək cərrahı olan atamla tanış olanda tibb bacısı ixtisası üzrə təhsil alırmış. Anam atamın qayğıkeşliyinə və səxavətinə vurulmuş, onun dini ilə maraqlanmış və qəbul etmişdir”, –  Haşmi deyir.

Haşmi üç bacısı ilə bərabər bazar günləri Hartforddakı İslam mədrəsəsinə gedir.

Monkuşun atası Banqladeşdəndir. O, 1971-ci ildə Qərbi Virciniyadakı əmioğlusu ilə birlikdə yaşamaq üçün Birləşmiş Ştatlara gəlib. Monkuşun



*Sağda Fatimə Monkuşun “Elan” jurnalı üçün işlədiyi modellər*

anası onunla dostuna baş çəkərkən tanış olub. O da evlənməmişdən iki il əvvəl İslamı qəbul edib.

## Moda aləminə cığır

Məktəbi bitirdikdən sonra Monkuş Konnektikut Universitetində və Mərkəzi Konnektikut Dövlət Universitetində incəsənət üzrə ali təhsil aldı. Məzun olduqdan sonra o, Nyu York şəhərinə gəldi və həmin yay Moda Texnologiyaları İnstitutunda (*Fashion Institute of Technology*) tələbə olan Haşmi ilə eyni mənzildə qaldı.

Moda Texnologiyaları İnstitutunda bakalavr təhsilini bitirdikdən sonra Haşmi tanınmış israilli dizayner İlay Taharinin (*Elie Tahari*) yanında qadın sviterlərinin dizaynı ilə məşğul olmağa başladı. Monkuş da paltar dizaynı sahəsində çalışmışdı. Əvvəlcə o, hip-hop stilində kişi geyimləri ilə məşğul olan ***Coogi*** və sonra isə hazırda çalışdığı qadınlar üçün zərif gündəlik geyimlər dizayn edən ***Married to the Mob*** şirkətlərində işləməyə başladı.

Haşmi və Monkuş yeni kolleksiyalarını bir yerə toplamaq üçün axşamlar və həftə sonları işləyirlər. Bu iş ağır zəhmət hesabına başa gəlir. Haşmi Kuinsdə (*Queens*), Monkuş isə həyat yoldaşı ilə birlikdə Bruklində yaşayır. Bununla belə, hər iki qadın öz arzularını həyata keçirir.

Paltarlar haqqında fikir onları ad seçiminə də gətirib çıxardı. “Həvva Fatimənin ana nənəsinin adıdır. Xurşid isə mənim ata nənəmin adıdır”, – Haşmi izah edir. Dizaynlar kimi, adlar da iki mədəniyyəti bir-birinə qovuşdurur.

Hələ ki Haşmi və Monkuş gündəlik iş vaxtlarını boş keçirmirlər. Ümid edirlər ki, onların kolleksiyaları insanların ehtiyacını təmin edəcəkdir. “Biz istəyirik ki, gördüyümüz iş ən böyük və ən yaxşı bir iş olsun. Bu, hər hansı bir ticarət markasına bənzəmir”, - Haşmi deyir.



*Yuxarıda: Fatimə Monkuş (sağdan ikinci) və Nila Haşmi (ayaq üstdə soldan üçüncü) digər müsəlman modelyerlərlə birlikdə “Elan” jurnalının fotosessiyasında.*

# Bəstəkar-müğənni Kərim Salama



Kərim Salama üçün ev onun gündəlik həyatını fonoqramla təchiz edən kantri[1] musiqisinin vətəni olan Amerikanın cənub qərbidir. Onun üçün ev həm də boya-başa çatdığı, klassik ərəb ədəbiyyatı və poeziyasını öyrəndiyi dindar müsəlman ailəsidir.

Salama 30 yaşından öz mahnılarının sözlərini və musiqisini yazmağa başladı. Hətta başqaları təəccüblə qarşılasalar belə, onun dini həssaslığı ilə ötkəm və fərqli cənub ləhcəsini birləşdirməsi tam təbii idi.

## Oklahoma və musiqi

Salamanın valideynləri Oklahomaya Misirdən gəliblər. Valideynləri Salamanı, iki qardaşı və bacısını burada böyüdüblər.

Hələ uşaq ikən Salama rodeolara[2], kənd ticarət yarmarkalarına, hind po-po[3] mərasimlərinə getmiş və Missurinin Barnson şəhərində bluqras[4] və kantri kimi ənənəvi musiqilərin və Tennessenin Naşvil şəhərindəki əfsanəvi Böyük Qədim Opera[5] (*Grand Ole Opry*) konsertlərinin nümayiş etdirildiyi yerlərdə də olmuşdur.

Salama öz İnternet səhifəsində yazırdı: "Oklahoma mənə bənzəyir. Burada mədəniyyətlər görüşür və rəqs edir. Oklahoma cənub, qərb və əsl Amerika mədəniyyətinin birləşməsidir. Anama mənim yeni nəsə öyrənmək və təcrübə qazanmaq üçün sonsuz istəyinə görə təşəkkür edirəm. O əmin idi ki, mən və ailəmdə hər kəs bu mədəniyyətin içərisinə qərq olacağıq".

## İnam və musiqi

Eyni zamanda, Salamanın valideynləri onun müsəlman dini təlimlərinə də biganə qalmırdılar. Cənublulara xas ləhcəsinə və Amerika musiqi tərzinə baxmayaraq, o, inamında çox ciddidir, zəngin dinini və mədəni irsini öz bəstələrində əks etdirir.

Salamananın mahnıları nə açıq siyası, nə də dinidir. Lakin bu nəğmələr onun qəribə keçmişini əks etdirir. Altmuslim.com veb səhifəsi onu Amerikanın musiqi mənzərəsində "canlı diktomiya" adlandırır.

Məsələn, dözümlülüyə həsr etdiyi bir mahnısında Salama İslam alimi və şair İmam Şafiinin qeyd etdiyi atalar sözündən sitat gətirir: "Mən buxur[6] kimiyəm – sən məni yandırdıqca, mən daha ətirli oluram".

O etiraf edir ki, atasının məsəli onun həm dünyagörüşünü, həm də musiqisini formalaşdırdı. Salama bildirir: "Atam hər şeyin mükəmməl olmasını istəyir və özünə sərt, başqalarına mülayim ol deyirdi".

O anladı ki, öz imanı ilə bağlı mahnı yazmaq onu çox cəzb edir. "Mahnı yazmamışdan əvvəl və sonra dua edirəm. Hər bir sözü diqqətlə seçirəm.

1 Adətən, gitaranın müşayiəti ilə ifa olunan Amerikaya məxsus kənd və ya kovboy musiqisi. red.
2 Kovboyların iştirakı ilə keçirilən sərgi və ya əyləncə mərasimləri. red.
3 Amerika hindularının söhbət və ya müzakirə məclisləri. red.
4 Banco, gitara və s. alətlərin virtuoz müşayiəti ilə tanınan instrumental Qərb musiqisi. red.
5 Naşvildə həftəlik kantri musiqilərindən ibarət konsertlər verən möhtəşəm konsert salonu. Bu konsertlər eyni adlı radio vasitəsi ilə də canlı yayınlanır. red.
6 Dini ayinlər zamanı yandırılan ətirli qatran. red.

Çox səmimi olmağa çalışıram və ümid edirəm ki, Allah bu nəğmələri insanların qəlbinə aparır”, – İova Universitetində verdiyi müsahibəsində Kərim demişdi.

## “Kantri” ilə bağlılıqlar

Salamanın kantri musiqisindəki ümidverici gələcəyi, xüsusən, yalnız sıx kommersiya məqsədilə açıq küçə, ucuz gecə barları musiqisi və itirilmiş sevgi mahnılarından xəbərdar olanlara qəribə görünə bilər.




“Kantri musiqisində özünəməxsus bir ruh var... və o, nəsə çox dərinliklərdən gəlir... Hələ də sən nə isə çox qədim və ənənəvi bir musiqi eşidə bilirsən,” – Kərim “altmuslim”ə müsahibəsində belə demişdi.

Əslində, Salama ABŞ-ın cənub-şərqindəki Appalaç bölgəsində dinlənilən bluqras adlı folklor musiqisinin köklərinə aid çox qədim bir ənənəni çəkib gətirmişdir.

Salama ingilis ədəbiyyatı ilə maraqlanmış və şair Con Donnun (*John Donne*) (1572-1631) “Vida: Qadağan olunan matəm” adlı dini şeirini öyrənmişdi. Bu əsərə musiqi bəstələməsi şeirin onun yaddaşında qalmasına kömək etdi.

## Bəstə və ifa

Salama mahnılarını və lirik şeirlərini Oklahoma Universitetinin mühəndislik fakültəsində və musiqiçi Aristotel Mihalopulosla görüşdüyü İova Universitetinin hüquq fakültəsində təhsil alarkən yazırdı.

Amerikalılar üçün əhəmiyyətli bir məqamda misirli və yunan immiqrantların övladları Amerika folklor musiqisini ifa etmək üçün əməkdaşlıq etmək qərarına gəlirlər. Sonrakı bir neçə il ərzində Salama ABŞ-da və Avropada, əsasən, müsəlmanlardan ibarət auditoriyanın qarşısında Mihalopulosun gitarda müşayiəti ilə çıxış etmişdi.

Səliqəli, yaraşıqlı görkəmi, ənənəvi saç düzümü



və klassik qara kovboy şlyapası olan Salama deyirdi ki, insanlar qeyri-adi müsəlman kantri musiqisi müğənnisinin konsertinə gələcəklər. Ümid edirdi ki, mahnıları insanları konsertdə axıra qədər qalmağa məcbur edəcək.

Demək olar ki, o, uğur qazanmışdır. 2008-ci ilin yayında Avropa turuna çıxan Salama London, Berlin, Paris (Avro Disneydə), Roma, Genuya və Amsterdamda müsəlman və qeyri-müsəlman auditoriya qarşısında öz gözəl müsiqisi ilə çıxış etmişdır.

Salama 2006-cı ildə çıxan “Təmənnasız sülh” (*Generous Peace*) adlı ilk albomunun ardından bir il sonra “Mənim həyatım” (*This Life of Mine*) adlı

2-ci albomunu çıxartdı. Onun Amerikanın müsəlman icmasının müxtəlifliyini və əhəmiyyətini vurğulayan "Cənnət adlanan məkan" adlı mahnısı mükafata layiq görülmüş bir klipin musiqisi olmuşdur.

O, hazırda yeni ticari əhəmiyyətli ilk albomu üzərində işləyir. Bu albomda ilk iki albomun ən yaxşı



mahnıları və bir neçə yeni mahnılar da olacaq.

Lakin Salamanın karyerası yalnız müğənniliklə məhdudlaşmır. Ali hüquq təhsili olduğu üçün o, lisenziya imtahanına hazırlaşır və patent hüququ ilə maraqlanır.

O, musiqi haqqında bəzi fikirlərini özünün MySpace adlı İnternet səhifəsində belə ümumiləşdirir: "Ümid edirəm ki, sözlərim mənim kimi Allah rİzası üçün gözəl həyat arayanların qulaqlarına və ürəklərinə dolacaqır".

*Yuxarıda, solda: Kərim Salamanın "Mənim həyatım" adlı ikinci kompakt diskinin üzü.*
*Yuxarıda: Berlində konsert. Almaniya, 2008-ci il.*

# Telejurnalist



## Kiran Xalid

Anasının dediyinə görə, Kiran Xalid hələ uşaq vaxtında karton qutunun içində oturar və oradan üzü çölə baxaraq: "Mən televizorun içindəyəm", – deyərmiş. O vaxtdan bəri 35 yaşlı telejurnalist Kiran televiziya xəbərlərinin aparıcısı və rejissor kimi fəaliyyət gös-tərərək yerli xəbər müxbirindən ölkə və beynəlxalq səviyyədə hadisələrin şərhçisinə qədər irəlilədi.

"Mən Birləşmiş Ştatların telexəbər yayımında çalışan ilk Pakistan mənşəli amerikalı qadınam. Əgər bu, doğru deyilsə, mən əsl pionerlə görüşmək istərdim. Aldığım məlumata görə, bu cığırı məhz mən açmışam", – deyə Kiran bildirir.

### Texasda böyüyərkən

Xalidin atası Hindistanın Nyu Dehli, anası isə Pakistanın Kəraçi şəhərlərində doğulmuşlar. Xalid özü isə atasının torpaq işləri ilə məşğul olduğu Texasda – Hyustonun şəhərətrafı ərazilərində böya-başa çatmışdır.

O, gənc yaşlarından jurnalistlikaya meyil



etmişdir. Kiran deyirdi: “Yazmağa olan məhəbbətim bu marağımı alovlandırdı. Hələ erkən yaşlarımdan tez-tez qısa hekayələr yazırdım”.

İki qardaşı və bacısı kimi Xalid də məktəbdə yaxşı oxuyurdu. Bacı-qardaşların yüksək nəticələri onlara yaşadıqları kiçik cəmiyyətdə azlıqlara mənsub yeganə ailə kimi çətinliklərə üstün gəlməkdə kömək edirdi.

“Tez-tez elə hadisələr baş verir ki, sadəcə, “dünyanın işləri belədir” deyə düşünürsən. “Yaxşı ki əvvəllər o çətinliklərlə üzləşmişdim. Onlar məni 11 sentyabrdan sonrakı əziyyətlərə hazırlamışdı”.

## Yerli televiziya xəbərləri

Xalid Ostində Texas Universitetində jurnalistika ixtisası üzrə təhsil aldı. Deyir ki, elə buradaca o, “televiziyanı operativliyinə və ən son xəbərlərlə efirdə olduğuna görə” seçib.

1996-cı ildə Kiran yerli Si-Bi-eS[1] (CBS) kanalında Texasın Korpus Kristi şəhərində işləməyə başladı. Onun buradakı işi həm çox maraqlı, həm də təhlükəli idi. Korpus Kristidə tufanlar, narkotik qaçaqmalçılığı, immiqrasiya kimi xəbərlərin yayımı üçün geniş imkanlar var idi. Lakin kanalın avadanlıqları köhnə olduğundan işləmək çətin idi.

Kiran deyirdi: “Bununla belə, mən bu işdən – kameranın qabağında olmaqdan zövq alırdım. Bircə onu bilirdim ki, mən bu işin öhdəsindən gələ bilərəm”.

Xalid Luizirananın Leyk Çarlz şəhərindəki digər televiziya stansiyasında bunun tamamilə əksini gördü: son dərəcə müasir avadanlıqlar, lakin nisbətən sakit xəbərlər mühiti. “Mən çox işləyirdim və yorğunluqdan daş kimi bir yerdə yıxılıb qalırdım”, – o deyir.

O artıq yerli əhali arasında məşhurlaşmışdı. Kiran gülə-gülə deyirdi: “Yarmarkada gəzərkən özümü səhnədəki kimi hiss edirdim. Sanki hər kəs məni tanıyırdı”.

Alabamanın Mobayl şəhərində Xalid bir gündə 4-5 dəfə efirə çıxırdı. Lakin o gördü ki, artıq əldən düşüb. “Hiss etdim ki, sankı dairənin içi ilə qaçıram”,– deyirdi. O, azad jurnalist kimi daha riskli, lakin müstəqil fəaliyyət göstərmək qərarına gəldi.

Keçənləri xatırlayarkən Xalid deyirdi: “Yerli xəbərlərin ən xoşladığım tərəfi araşdırma, tədqiqat apararaq reportaj hazırlamaqdır. Tez-tez gözdən qa-çırılan “kölgə biznesi” yaradanlar və məsuliyyət daşıyan insanların hərəkətləri haqqında məlumatı yerli xəbərlərin ictimai xidməti parlaq televizor ekranına çıxardır”.

O əlavə etmişdi: “Çox vaxt təzyiqlər həddindən artıq olur və bu, tez-tez verilən qısa xəbər buraxılışları modelini müstəqil, detallı əhatə olunmuş məlumatın cəlbediliciyindən daha əhəmiyyətli edir”.



*Yuxarıda solda: Kiran Xalidin 2005-ci ildə Afrikada tapşırıq zamanı palçığa batması anı. Yuxarıda sağda: “Musiqini Qoruyaq” Fondunun illik yekun konsertində Con Meyerdən (John Mayer) müsahibə alarkən, 2007-ci il.*

1 CBS *(Columbia Broadcasting System)* – ABŞ-da ən böyük televiziya şəbəkələrindən biridir. red.

## Müstəqil fəaliyyət

Xalid 2005-ci ildə Niger və Malidə aclıqdan əziyyət çəkən fermerlərin acınacaqlı həyatından reportaj hazırlamışdır. Onun "Aclıq təhlükəsi" adlı sənədli filmi Birləşmiş Millətlər Təşkilatının film festivalının finalçısı olmuşdur.

Birləşmiş Ştatlarda Xalid "Kort" televiziyasında (*Court TV*), əsasən, cinayət və mülki mühakimələri əhatə edən müxtəlif xəbər proqramlarının prodüseri kimi çalışmışdır.

Xalid Cənubi Asiya Jurnalistlər Assosiasiyasının fəal üzvü də olmuşdur. "Bu Assosiasiyanın heyətində olmağımla fəxr edirəm. Mən daha çox gənc jur-



nalistlərə hamilik edən, təqaüd ayıran bu cür təşkilatlarda işləməkdən zövq alıram," – Kiran bildirir.

## Pakistan və Amerika

2001-ci ilin 11 sentyabr terror hücumundan sonra Xalid dərhal anladı ki, "Pakistan bu hadisələrdə mərkəzi yer ala bilər. Lakin mən bilirdim ki, əgər indi olmasa, Pakistan heç vaxt bu hadisələrin içərisində olmayacaq".

Urdu dilində səlis danışdığı üçün o, Pakistana səfər etdi. Kiran əksəriyyəti terrorizmi lənətləyən Pakistanın dini məktəb və mədrəsələrindən reportajlar hazırlayan ilk Qərb jurnalistlərindən biri idi.

2007-ci ildə Xalid çox təhlükəli bir tapşırıqla – Müşərrəf hökumətinin media üzərinə qoyduğu senzuradan və jurnalistlərə edilən hücumlardan bəhs edən "Biz azad deyilik" sənədli filmini çəkmək üçün Pakistana qayıtdı.

"AsiaMedia"-ya verdiyi müsahibəsində o demişdir: "Onların bu cürəti məni mat qoyurdu. Cəsarətli çağırışlarına görə təqib olunsalar da, könüllü olaraq öz həyatlarını təhlükəyə atırdılar".

2008-ci ilin yanvar ayından Xalid televiziyalardan birinin – eY-Bi-Si[2] (ABC) televiziyasının ən məşhur informasiya və ədəbi proqramı olan "Sabahın xeyir, Amerika" verilişinin prodüseri kimi fəaliyyət göstərir.

"Bu işin intensivliyi mənim xoşuma gəlir. Bir gün qazın qiymətindən, ertəsi gün 2008-ci ilin prezident seçkilərindən söhbət açırıq", – o deyir.

Kiran deyirdi: "Sabahın xeyir, Amerika" mənə milyonların tamaşa etdiyi hadisələri yazmaq və hazırlamaq imkanı verdi. Ümid edirəm ki, növbəti 10 ildə də uyğun və böyük məqsədlərə xidmət edən məsələlər üzərində işləyəcəyik".

2 ABC *(American Broadcasting Company)* – ABŞ-da radio-televiziya şəbəkəsi. red.

## Amerika müsəlmanları

# Statistik portret

Bu günün amerikalı müsəlman əhalisi etnik, dil, ideoloji, ictimai, iqtisadi və dini mənşələrinə görə olduqca rəngarəngdir. Buradakı yerli müsəlmanlar artıq Amerika cəmiyyətinə çox yaxşı inteqrasiya olublar. Yeni gələnlərin çoxu isə Amerika həyatına yavaş-yavaş uyğunlaşmağa başlayır. İnanclarına görə müsəlmanlar ənənəvi, müasir və dünyəvi olaraq, müxtəlif təbəqələrə bölünürlər. Bəziləri, əsasən, öz icmalarının adət-ənənələri və mədəniyyətinə qapılıb qalmağa üstünlük verdiyi halda, digər müsəlmanlar isə xristianlar, yəhudilər, hindular və Amerikanın bir çox dini icmaları kimi tam siyasi və sosial inteqrasiyaya can atırlar. Mühacirlərin əksəriyyəti müsəlmanların üstünlük təşkil etdiyi ölkələrdən gəlir və şübhəsiz ki, plüralist cəmiyyətin xüsusiyyətlərini öyrənərək müəyyən uyğunlaşma mərhələsi keçir.

ABŞ-da dini qurumların ayrıca siyahıyaalınması keçirilmədiyindən müsəlman amerikalıların sayını müəyyən etmək çətindir. Onların sayı təxminən 2 milyonla 7 milyon arasında qiymətləndirilir. Bununla belə, bir fakt aydındr ki, müsəlman amerikalıların sayı mühacirlərə, doğum faizinin yüksəkliyinə və sonradan İslamı qəbul edənlərə görə sürətlə artmışdır.

### Birləşmiş Ştatların hansı regionlarında müsəlmanlar yaşayırlar?



| | |
|---|---|
| Cənubda | 32% |
| Şimal-Şərqdə | 29% |
| Mərkəzi Qərbdə | 22% |
| Qərbdə | 18% |

### Müsəlmanların yaşa və cinsə görə bölgüsü



| | |
|---|---|
| 18-29 yaş | 29% |
| 30-49 yaş | 48% |
| 50-64 yaş | 18% |
| 65+ yaş | 5% |
| Kişilər | 54% |
| Qadınlar | 46% |

## Təhsilin səviyyəsi

| | Müsəlmanlar | Ümumi əhali |
|---|---|---|
| Magistratura və doktorantura təhsili | 10% | 9% |
| Kollec məzunları | 14% | 16% |
| Kollecdə təhsil alanlar | 23% | 29% |
| Orta məktəb məzunu | 32% | 30% |
| Orta məktəbi bitirməyənlər | 21% | 16% |

## Ailənin illik gəliri

| ABŞ dolları ilə | Müsəlmanlar | Ümumi əhali |
|---|---|---|
| $100,000 | 16% | 17% |
| $75,000 - $95,000 | 10% | 11% |
| $50,000 - $74,999 | 15% | 16% |
| $30,000 - $49,999 | 24% | 23% |
| $30,000 - dən az | 35% | 33% |

Tribuna Araşdırma Mərkəzinin 2007-ci ildə apardığı sorğuya əsasən müsəlman amerikalıların 65 faizini birinci nəsil mühacirlər, 61 faizini isə xaricdə doğulan və 1990-cı illərdə, yaxud bu onillikdə Amerikaya gələnlər təşkil edir. Burada yaşayan müsəlmanların 75 faizi Birləşmiş Ştatların vətəndaşıdır. Bunların da 65 faizi xarici ölkədə doğulmuş və ABŞ vətəndaşlığı almışdır. Müqayisə üçün bildirək ki, ABŞ-da yaşayan, xaricdə doğulmuş çinlilərin 58 faizi bu ölkənin vətəndaşıdır.

Nyu York Universiteti Hüquq fakültəsi İnsan Hüquqları və Qlobal Ədalət Mərkəzi (*Center for Human Rights and Global Justice at New York University's School of Law*) vətəndaşlıq almaq üçün 3 ildən çox gözləyən 40 mindən artıq insan arasında çoxlu sayda müsəlman olduğunu müəyyən etmişdir. Əslində isə bu proses 180 gündən artıq çəkməməlidir.

Bütövlükdə, Amerika müsəlmanlarının beşdə birindən üçdə birinə qədərini Afrika mənşəli müsəlmanlar təşkil edir. Digər əsas etnik qruplar ərəblər və Cənubi Asiyadan olanlardır (hindistanlılar, pakistanlılar, banqladeşlilər və əfqanlar).

Hətta əksər amerikalıların İslamı başlıca olaraq

## Dominant etnik qrupların məscidləri



| | |
|---|---|
| Cənubi Asiya | 28% |
| Afrikalı amerikalılar | 27% |
| Cənubi Asiya, ərəb və qarışıqlar | 16% |
| Ərəblər | 15% |
| Digərləri | 14% |

## Din sizin həyatınızda nə qədər mühümdür? *(Bütün dinlər)*



| | |
|---|---|
| Çox mühümdür | 72% |
| Müəyyən qədər mühümdür | 18% |
| O qədər də mühüm deyil | 5% |
| Heç mühüm deyil | 4% |
| Bilmirəm | 1% |

ərəblərə görə tanımasına baxmayaraq, ərəb mənşəli amerikalıların üçdə ikisi xristiandır. Bununla belə, mühacir ərəblərin böyük əksəriyyəti II Dünya müharibəsindən sonra islamı qəbul etmişdirlər. Müsəlmanlar ərəb mənşəli amerikalıların sürətlə artan hissəsidirlər. Cənubi Asiyadan olanlar ən tez artan müsəlman cəmiyyətini – bəlkə də onlar bütün amerikalı müsəlmanların dörddə birini təşkil edirlər. Birləşmiş Ştatların müsəlman əhalisinin tərkibinə türklər, iranlılar, bosniyalılar, malayziyalılar, indoneziyalılar, nigeriyalılar, somalililər, liberiyalılar, keniyalılar, seneqallılar və başqaları da daxildirlər. Bundan əlavə, az da olsa, İslamı qəbul edən ağlar və ispanlar da var və onların sayı getdikcə artır. Onlardan çoxu müsəlman kişilərlə evlənən qadınlardır.

Müsəlmanlar ölkənin hər bucağında yaşasalar da, onların əsas hissəsi iki sahil arasındakı böyük şəhərlərdə və Orta Qərbdə: Nyu York, Los Anceles, Çikaqo və Detroit/Dearbornda yerləşiblər. Ən çox müsəlman əhalisi olan 10 ştat bunlardır: Kaliforniya, Nyu York, İllinoys, Nyu Cersi, İndiana, Miçiqan, Virciniya, Texas, Ohayo və Merilend. Sayları əhəmiyyətli dərəcədə çox olan xaricdə doğulmuş müsəlman tələbələrin və universitet əməkdaşlarının da universitetlər yaxınlığında qurduqları cəmiyyətləri var.

2007-ci il Tribuna Tədqiqat Mərkəzi aşkar etdi ki, yerli müsəlmanlardan daha yaxşı təhsil almış və daha zəngin mühacir müsəlmanlar sayəsində müsəlman amerikalılar təhsil və gəlir səviyyələrinə görə ümumilikdə ABŞ cəmiyyətini əks etdirirlər. ABŞ-ın ali təhsil almış 25 faiz ümumi əhalisi ilə müqayisədə buradakı bütün müsəlmanların 24 faizi, mühacir müsəlmanların isə 29 faizinin ali təhsili var. Bütün müsəlman amerikalıların 41




## Birləşmiş ştatlarda məscidlə

Özünü Qlobal Müsəlman e-İcması adlandıran IslamCity.com İnternet saytı 2005-ci ildən başlayaraq, Birləşmiş Ştatlardakı müsəlmanlar haqqında geniş informasiya toplamışdır. Onun onlayn bazasına 50 ştatda yerləşən 2300-dən çox məscid, İslam

| | | | | | |
|---|---|---|---|---|---|
| AL | Alabama (Alabama) | 20 | IL | İllinoys (Illinois) | 43 |
| AK | Alyaska (Alyaska) | 0 | IN | İndiana (Indiana) | 14 |
| AZ | Arizona (Arizona) | 10 | IA | Ayova (Iowa) | 5 |
| AR | Arkanzas (Arkansas) | 1 | KS | Kanzas (Kansas) | 2 |
| CA | Kaliforniya (California) | 198 | KY | Kentukki (Kentucky) | 9 |
| CO | Kolorado (Colorado) | 8 | LA | Luiziana (Louisiana) | 17 |
| CT | Konnektikut (Connecticut) | 17 | ME | Meyn (Maine) | 1 |
| DE | Delaver (Delaware) | 2 | MD | Merilend (Maryland) | 18 |
| DC | Kolumbiya bölgəsi (District of Columbia) | 8 | MA | Massaçusets (Massachusetts) | 13 |
| FL | Florida (Florida) | 42 | MI | Miçiqan (Michigan) | 55 |
| GA | Corciya (Georgia) | 40 | MN | Minnesota (Minnesota) | 3 |
| HI | Havay (Hawaii) | 1 | MS | Missisipi (Mississippi) | 9 |
| ID | Aydaho (Idaho) | 3 | MO | Missuri (Missouri) | 7 |




## ərin paylaşımı

məktəbləri və təşkilatları daxildir. Burada ştatlar üzrə məscidlərin sayı IslamCity.com İnternet saytının bazasına 2008-ci ilin dekabrında daxil edilmişdir. Kolumbiya dairəsinin statistik məlumatları Vaşinqtondakı İslam Mərkəzindən götürülmüşdür. Onların ümumi sayı 1018-dir.

| | | |
|---|---|---|
| MT | Montana (Montanda) | 2 |
| NE | Nebraska (Nebraska) | 1 |
| NV | Nevada (Nevada) | 3 |
| NH | Nyu Hempşir (New Hampshire) | 3 |
| NJ | Nyu Cersi (New Jersey) | 56 |
| NM | Nyu Meksika (New Mexico) | 7 |
| NY | Nyu York (New York) | 131 |
| NC | Şimali Karolina (North Carolina) | 20 |
| ND | Şimali Dakota (North Dakota) | 4 |
| OH | Ohayo (Ohio) | 41 |
| OK | Oklahoma (Oklahoma) | 8 |
| OR | Oreqon (Oregon) | 10 |
| PA | Pensilvaniya (Pennsylvania) | 43 |
| RI | Rod Aylend (Rhode Island) | 2 |
| SC | Cənubi Karolina (South Carolina) | 12 |
| SD | Cənubi Dakota (South Dakota) | 2 |
| TN | Tennessi (Tennessee) | 10 |
| TX | Texas (Texas) | 58 |
| UT | Yuta (Utah) | 5 |
| VT | Vermont (Vermont) | 0 |
| VA | Virciniya (Virginia) | 27 |
| WA | Vaşinqton (Washington) | 10 |
| WV | Qərbi Virciniya (West Virginia) | 3 |
| WI | Viskonsin (Wisconsin) | 13 |
| WY | Vayominq (Wyoming) | 1 |

faizi və mühacir müsəlmanların 45 faiznin illik ailə gəlirinin 50 min ABŞ dolları və daha çox olduğu bildirilir. Bu, 44 faizlik milli ortagəlirlilərlə müqayisə edilə bilər. Mühacir müsəlmanlar daha çox gəlir əldə edənlər –illik ailə gəlirləri 100 min ABŞ dolları və daha çox olanlar arasında 19 faizlik göstərici ilə çox yaxşı təmsil olunurlar (ümumi müsəlman əhalinin 16 faizi, bütövlükdə ABŞ əhalisinin 17 faizi ilə müqayisədə). Bu, peşəkar, təşkilati və texniki sahələrdə müsəlmanların, xüsusilə, informasiya texnologiyalarında, təhsildə, tibdə, hüquqda və korporativ dünyada güclü konsentrasiyasının nəticəsi hesab olunur. 2001-ci ildən bəri müsəlman və ərəb kişilərin əmək haqlarında azalmanın bəzi işarələri var. Lakin ən son məlumatlar bu fikirlərin əksini göstərir.

Müsəlman amerikalılar iki mühüm əhəmiyyətli Amerika təcrübəsini yaratmaqla bənzərsizdirlər: afro-amerikalılar və mühacirlər. Mühacir müsəlmanlar və Afrika mənşəli amerikalı müsəlmanlar siyasətdə və cəmiyyətdə bəzən birlikdə, çox vaxt isə öz səslərini müstəqil çatdırmaq üçün çalışmışlar. Müsəlmanlar olaraq onlar kimliklərinə sahib olarkən irqi, mədəni, sosial-iqtisadi və tarixi şəraitləri baxımından, çox fərqlənmişlər. Tam siyasi iştiraka çalışarkən mühacir müsəlmanlar, xüsusən digər amerikalılarla təşkilati güc yaratmaqda və effektiv ünsiyyət saxlamaqda Afrika mənşəli amerikalı müsəlmanların uğurlarından faydalanmışlar.

*Mənbə: Statistuk məlumatlar Tribuna Tədqiqat Mərkəzinin hazırladığı "Müsəlman amerikalılar: Orta təbəqə və əsas cərəyanlar" kitabından götürülmüşdür (22 may, 2007-ci il). Bu məqalənin mətni Qlobal İşlər üzrə Çikaqo Konsulluğunun hazırladığı "Güclənən Amerika: Müsəlman amerikalıların ictimai və siyasi inteqrasiyası" kitabından götürülmüşdür (2007-ci il).*

# Yaxınlıqdakı məscidlər



**İslam İcması Mərkəzi**/ Tempe Məscidi
131 E., Altıncı küçə, Tempe şəh., Arizona şt.
**Islamic Community Center** / Tempe Masjid
131 E. Sixth Street, Tempe, Arizona

Mədəniyyət mərkəzi, məscid və məktəbdən ibarət olan İslam İcması Mərkəzi Arizonanın Tempe şəhərində Arizona Dövlət Universitetinin şimal hissəsində yerləşir. Mərkəzin qapıları 75 millətdən olan və bütün sosial-iqtisadi mənşəyə mənsub insanların üzünə açıqdır. Mərkəz 1984-cü ildə o vaxta qədər kiçik qruplar halında evlərdə namaz qılan insanları bir yerə toplamaq məqsədilə yaradıldı. Cümə namazına təxminən 300 adam toplaşır, məscid Arizona Dövlət Universiteti Tələbə Assosiasiyasının və icmanın həyatında da yaxından iştirak edir. Mərkəzdə İslama dair kiçik kitabxana vardır. Yerusəlimdə yerləşən Səkkiz guşəli məscid üslubunda inşa edilmiş bu məscidə ənənəyə uyğun olaraq ictimaiyyət üçün səyahətlər təşkil edilir. Nigah, dəfn mərasimlərinin təşkili kimi ictimai xidmətlərlə yanaşı, mərkəz Foeniks Şəhərətrafı İslam Məktəbi kimi də ibtidai sinif şagirdlərinə xidmət edir.





**Əbu - Bəkr Məscidi** (Kolorado Müsəlman Cəmiyyəti)
2071, Cənubi Parker yolu, Denver şəh., Kolorado şt.
**Masjid Abu-Bakr** (Colorado Muslim Society)
2071 South Parker Road, Denver, Colorado

Həftədə iki-üç min insanın ziyarət etdiyi Kolorado Müsəlman Cəmiyyəti Denverdə İslam həyatının dayağıdır. Bu yaxınlarda burada artmaqda olan müsəlman əhalinin rahat yerləşməsini təmin etmək məqsədilə məscidin namaz qılınan ərazisinin iki dəfə böyüdülməsi layihəsi həyata keçirildi. Ərazinin mərkəzi küçələrindən birində yerləşən cəmiyyət müsəlmanların, xüsusilə onun gənc üzvlərinin ictimai həyatında mühüm rol oynayır. Yetkin gənclər cəmiyyətin islami bazar günü məktəblərində müəllimlik edirlər. Bazar günü dərslərindən başqa, cəmiyyət Aypara Baxış Akademiyası (*Crescent View Academy*) vasitəsilə islami təhsilə cəlb edilib. Uşaq bağçasından 8-ci sinfə qədər müsəlmanlara və qeyri-müsəlmanlara təhsil verən cəmiyyət, əsasən, ərəb dilinin və ümumi İslami biliklərin tədrisinə ciddi diqqət yetirir.





**Mərkəzi Florida İslam Cəmiyyəti**
1089 N., Qoldenrod yolu, Orlando şəh., Florida şt.
**Islamic Society of Central Florida**
1089 N. Goldenrod Road, Orlando, Florida

Mərkəzi Florida İslam Cəmiyyəti 1970-ci illərin əvvəllərində Orlandoda sadə bir formada fəaliyyətə başladı. İlk məscid – Məscid ər-Rəhman, yaxud Mərhəmət Məscidi 1980-ci illərin əvvəllərində tikildi. Ərazinin sürətli inkişafı cəmiyyətin genişlənməsinə gətirib çixardı. Bu gün cəmiyyətin ərazi boyu doqquz məscidi var və onlar 40 min müxtəlif etnik mənşəyə mənsub müsəlmana xidmət edir. 2001-ci ildə cəmiyyət Sülh Mərkəzini yaratdı. Bu mərkəz müsəlmanlar haqqında yaranmış mənfi stereotipləri aradan götürməyə, insanlar arasında sülh və anlaşma yaratmağa xidmət edir. Mərkəzi Florida İslam Mərkəzi Mərkəzi Florida Universitetinin Müsəlman Tələbələr Liqasına da yardım edir.





**Əbu -Bəkr əl-Siddiq Məscidi**
4425, David Drayv, Meteyri şəh., Luiziana şt.
**Masjid Abu-Bakr Al-Siddiq**
4425 David Drive, Metairie, Louisiana

Əbu Bəkr əl-Siddiq Məscidinin nadir memarlığı var. Bu, Nyu Orleansda məhz məscid binası kimi tikilən, geodezik günbəzə və minarəyə malik yeganə məsciddir. 250-300 dindarın əksəriyyəti birinci və ikinci nəslə mənsub Pakistan, Hindistan və Yaxın Şərqdən olan müsəlman amerikalılardır. Namaz qılanların 20 faizi son illərin mühacirləri və islamı qəbul edənlərdir. Məscid sərhəd ərazilər olan Kenner, Luiziana və Orleans Pariş müsəlmanlarına da xidmət edir. Xoşbəxtlikdən, məscid "Katrina" qasırğası zamanı o qədər də böyük zədə almadı. Məscidin üzvlərinin çoxu öz evlərinə qayıtdı və beləliklə məscid öz üzvlərinin əksəriyyətini qoruyub saxladı.





**Alban İslam Mərkəzi**
19775, Harper prospekti, Harper Vudz şəh., Miçiqan şt.
**Albanian Islamic Center**
19775 Harper Avenue, Harper Woods, Michigan

1962-ci ildə Detroyt ərazisində alban-müsəlman əhalisi Alban İslam Mərkəzinin əsasını qoymuşdur. Vayn ərazisində, şəhərdən kənarda yerləşən mərkəz tosk və qeq (*Toska və Geqa*)[1] albanlarının təxminən 150 ailəsinə, o cümlədən iranlılara, fələstinlilərə, maltalılara, ərəblərə və hindlilərə xidmət göstərir. Mühacirətlə bağlı onların ibadət tərzlərində dəyişikliklər yarandı. Ölkənin cənub ərazilərində yaşayan Tosk albanları ABŞ-da 19-cu əsrdən bəri yaşamış və müsəlmanların dəyişməsində mühüm rol oynamışlar. Onların ibadət tərzi və ictimai normaları daha rahatdır. Albaniyanın şimalından olan qeq albanları isə ənənəvi İslama üstünlük verirlər. Yeni mühacirlərin gəlişi ilə ibadət tərzləri də dəyişikliyə məruz qalırdı.



**Böyük Kanzas Şəhər İslam Cəmiyyəti**
8501 E., 99-cu küçə, Kanzas şəh., Missuri şt.
**Islamic Society of Greater Kansas City**
8501 E. 99th Street, Kansas City, Missouri

Kanzas şəhərinin bir qrup sakini 1970-ci illərin əvvəllərində ilk Ramazan bayramı namazından sonra məscid tikməyi planlaşdırmışdı. 10 ildən sonra Böyük Kanzas Şəhər İslam Cəmiyyəti məscidin qapılarını ictimaiyyətin üzünə açdı və qeyri-kommersiya təşkilatı kimi fəaliyyət göstərməyə başladı. O vaxtdan cəmiyyət icmanın parkları və müsəlman qəbiristanlıqları üçün ərazilər alaraq genişlənməkdədir. 1987-ci ildə mərkəzdə daimi fəaliyyət göstərən İslam məktəbi açıldı və hazırda 100-dən çox şagirdi var. Cəmiyyətin məlumatına görə, o, Kanzas şəhəri ərazisində 8 mindən artıq müsəlmana xidmət edir. Lakin onun xidmət sahəsinə qeyri-müsəlman icması da daxildir. İnsanlar mərkəzi ziyarət etməyə həvəsləndirilir. Mərkəz ictimaiyyətə ərəb dili, islami biliklər, Quran dərsləri təklif edir.



1 Albanlar tosk və qeq (quzey və güney) olmaq üzrə iki böyük qrupa ayrılırlar. Bu fərqliliyin səbəbinin etnik deyil, coğrafi olduğu bildirilir. red.



**Məscid əl-İslam**
40, Sayles Hill Yolu, Şimali Smitfild şəh., Rod Aylend şt.
**Masjid Al-Islam**
40 Sayles Hill Road, North Smithfield, Rhode Island

Rod Aylenddəki ən böyük məscid Məscid əl-İslam 1994-cü ildə Şimali Smitfildin artan müsəlman əhalisinə xidmət etmək məqsədilə tikildi. Məscidin qapıları bütün irqlərə və etnik mənşəyə mənsub müsəlmanların üzünə açıqdır. Burada, əsasən, Quranın və hədis kitablarının əlyazma nüsxələri qorunub saxlanılır. Məscidin rəhbərliyi demokratikdir. Rəhbərliyin altı nəfərlik üzvü inzibati işlərlə məşğuldur. Lakin bütün əsas məsələlər hansısa son qərar qəbul edilməmişdən əvvəl icma qarşısına çıxarılır. Məscid əl-İslam dinlərarası dialoqlar yaradır və icma proqramlarının yerinə yetirilməsi məsələlərində xristian və yəhudi icmaları ilə əməkdaşlıq edir. Gələcək planlara yerli xəstəxanalarla illik səhiyyənin vəziyyətini nəzərdən keçirmək məqsədilə əməkdaşlıq etmək daxildir. Bu tədbir icmanın tibbi təhsil günü proqramının bir hissəsidir. Cümə namazına təxminən 250 nəfər gəlir, bunun üçün rəsmi üzvlük tələb olunmur.





**Məscid əl-Muslimiin** (Kolumbiya İslam Mərkəzi)
1929, Gervays küç., Kolumbiya şəh., Cənubi Korolina şt.
**Masjid Al-Muslimiin** (Islamic Center of Columbia)
1929 Gervais Street, Columbia, South Carolina

Cənubi Karolinanın Kolumbiya şəhərinin mərkəzində yerləşən Məscid əl-Muslimiində beş yüz müsəlman namaz qılır. 1981-ci ildən fəaliyyətə başlayan mərkəz Cənubi Karolina Universitetinə yaxın olduğundan tələbələrin köməyi ilə tez-tez əraziyə qabaqcıl İslam natiqləri dəvət edir. Mərkəz tərəfindən üzvlərə bir çox xidmətlər təklif olunur. Buraya müsəlman uşaqlar üçün təşkil edilmiş Quran qiraəti və İslam tarixinə dair bazar günü dərsləri, təhsili inkişaf etdirmək üçün qadınlar forumu, səhiyyə və sosial fəaliyyətlər daxildir. Həbsxanaya kömək proqramı vasitəsilə mərkəz İslamın fəal şəkildə yayılması ilə məşğuldur. Onlar müsəlman olan keçmiş cinayətkarlara və icmaya təzə daxil olanlara həyatlarının keçid dövründə yardım edə biləcəklərinə ümid edirlər. Mərkəz müsəlman icması üçün ərzaq kooperativini də inkişaf etdirməyi planlaşdırır.



# Mühüm tarixi hadisələr



**1619-1800-cü illər**. 10 milyona yaxın afrikalının Şimali Amerikaya qul kimi gətirildiyi güman olunur. Onların təxminən 30 faizi müsəlman idi.



**1775-ci il.** Əvvəllər qul olmuş Peter Səlim (Peter Salem (Saleem)) Bunker Hill döyüşündə və Amerika İnqilabında döyüşmüşdür. Müsəlman amerikalılar ABŞ-ın bütün müharibələrində iştirak etmişlər.



**1796-cı il.** Prezident Con Adams Osmanlı-Türk Bəylərbəyliyi və Barbar Tripoliyasının rəhbərliyi ilə Sülh və Dostluq Müqaviləsi imzalayır.



**1819-cu il.** Şəkildəki orta yaşlarında, sahibinin azad etdiyi Yarrou Marmud (və ya Mamut) bugünkü Vaşinqton şəhərinin bir hissəsi olan Corctaunda sahibkar və bank sərmayəçisi kimi fəaliyyət göstərmişdir.



ANOTHER DAILY NEWSPAPER.

The First One Published in America in the Arabic Tongue Comes Out To-day.

New York City has another daily newspaper this morning, the first one printed in the Arabic tongue in this country. This is The Kawkab America, or Star of America, which has been published for the last eight years, but never, before its issue of to-day, as a daily.

The Kawkab America was founded by Najeeb J. Arbeely, who was for a number of years its editor and is still interested in its publication. Mr. Arbeely came to this country from the Sultan of Turkey's domains when a four-year-old boy, and is a thorough American. He was United States Consul at Jerusalem in [illegible] and is now an Inspector in the Immigration Service at

**1898-ci il.** "Nyu York Tayms" qəzeti "Kəvkab Amrika" ("Amerikanın ulduzu") adlı ilk ərəb qəzetinin ABŞ-da gündəlik nəşr olunmağa başlaması haqqında məlumat verir.



**1907-ci il**. Polşa, Rusiya və Litvadan olan tatar mühacirlər ilk müsəlman təşkilatı olan Amerikalı Məhəmmədilər Cəmiyyətini (*American Mohammedan Society*) yaradırlar.



**1908-ci il.** Bugünkü Suriya, Livan, İordaniya və Turkiyəni əhatə edən Osmanlı İmperiyasından ABŞ-a çox sayda müsəlman daxil olur.



**1913-cü il.** Zadəgan Dru Əli (*Drew Ali*) (1886-1929) Nyu Cersinin Nyuark şəhərində Amerikanın Ucalan Elm Məbədini (*Moorish Science Temple of America (MSTA)*) təsis edir. Bu dini qrup özünü islami sekta adlandırsa da, digər dinlərdən olanları da əhatə etmişdir.



**1919-cu il.** İlk İslam Assosiasiyası çoxlu sayda müsəlmanın avtomobil sənayesində çalışdığı Miçiqanın Detroyt şəhəri yaxınlığında – Haylend Parkda (*Highland Park*) təsis edildi.



**1924-cü il.** Conson-Riid İmmiqarsiya Aktının (*The Johnson-Reed Immigration Act*) milli kvota müəyyən etməsi ilə ABŞ-a gələcək yeni mühacirlərin sayına kəskin məhdudiyyət qoyulur.



**1934-cü il.** İovanın Sedar Rapids şəhərində (*Cedar Rapids, Iowa*) xüsusi bina olaraq tikilmiş ilk məscid – Ana Məscidi (*The Mother Mosque*) inşa edilir.




**1934-cü il.** Əlicah Məhəmməd (*Elijah Muhammad*) bəzi islama tərəfdar olan zəncilərin millətçi təşkilatı – İslam Ümmətinin Baş naziri (*Supreme Minister of the Nation of Islam (NOI)*) olur.



**1957-ci il.** Prezident Duayt D.Eyzenhauer (*Dwight D. Eisenhower*) və Birinci Xanım Mami Eyzenhauerin (*Mamie Eisenhower*) iştirakı ilə Vaşinqton şəhərində İslam Mərkəzi – məscid və İslam mədəniyyət mərkəzi açılır.



**1965-ci il.** Prezident Lindon B.Conson (*Lyndon B.Johnson*) 1965-ci ilin İmmiqrasiya və Milliyyət Fərmanını (*Immigration and Nationality Act of 1965*) imzalayır. Bu fərman 1924-cü ildə millətlərə qoyulmuş kvotanı götürür və qeyri-avropalıların ABŞ-a mühacirətinə şərait yaradır.




**1965-ci il.** Qəhrəmanının qətlindən az sonra – 1965-ci ilin fevralında nəşr olunmuş “Malkolm İksin tərcümeyi-halı” (*The Autobiography of Malcolm X*) kitabı Afrika mənşəli amerikalılar arasında geniş yayılmış bir hadisə – İslamı qəbul etmiş bir insanın hekayəsidir. Bu, 20-ci əsrin ən təsirli kitablarından biri olaraq qalır.



**1991-ci il.** Nyu York şəhərində İslam Mədəniyyət Mərkəzinin inşası başa çatır. Bu, Nyu York şəhərində məscid kimi inşa edilən ilk binadır və cümə namazında buraya dörd mindən artıq dindar toplanır.




**1991-ci il.** Çarlz Bilal (*Charles Bilal*) Texasın Kountze şəhərinin meri seçilir. O, ABŞ bələdiyyəsinə rəhbərlik edəcək ilk müsəlman olur.



**1993-cü il.** Əbdül-Rəşid Məhəmməd (*Abdul-Rasheed Muhammad*) ABŞ ordusuna təyin edilmiş ilk müsəlman kapellan olur.



**1996-cı il.** İlk dəfə Ramazan bayramı Ağ Evdə qeyd edilir.




**2001-ci il.** ABŞ Poçt Xidməti ilk dəfə İslam bayramı şərəfinə marka buraxır. 34 sentlik Ramazan markası “Bayramların qeyd edilməsi” seriyasındandır.



**2005-ci il.** Müsəlman qadınlarının və ümumilikdə İslamın imicini yüksəltməyə kömək məqsədilə ana İmani Əbdül-Həqq (*Imani Abdul-Haqq*) və onun qızı Dr.Əlfiə F.Əli (*Dr.Althia F.Ali*) ilk müsəlman qadın cəmiyyətini – Qamma Qamma Çi (*Gamma Gamma Chi*) yaradırlar.



**2006-cı il.** Kanada mənşəli İnqrid Matson (*Ingrid Mattson*) Şimali Amerika İslam Cəmiyyətinin ilk qadın prezidenti olur.



**2006-cı il.** Keyt Elison ABŞ Konqresinin Nümayəndələr Palatasına Minnesotadan üzv seçilən ilk müsəlman olur.



**2007-ci il.** Prezident Corc Buş (*Bush George W.Bush*) Vaşinqton şəhərindəki İslam Mərkəzinin 50 illik yubileyində iştirak edir.



**2008-ci il.** İmam Varit Din Məhəmmədin (*Imam Warith Deen Mohammed*) vəfatı. O, “Amerikanın İmamı” kimi tanınmış və kömək üçün ABŞ Senatına müraciət etmiş (1990) ilk müsəlmandır. O, Bill Klintonun xoşməramlı dua mərasimində çıxış etmiş və Mərhəmət Məscidinin “Dəvət” çağırış layihəsinə rəhbərlik etmişdir.

## Biblioqrafiya

Abdo, Geneive. Mecca and Main Street: Muslim Life in America After 9/11. Oxford; New York: Oxford University Press, 2006.

Barrett, Paul. American Islam: The Struggle for the Soul of a Religion. New York: Farrar, Straus and Giroux, 2007.

Cesari, Jocelyne, ed. Encyclopedia of Islam in the United States. Westport, CT: Greenwood Press, 2007.

Cesari, Jocelyne. When Islam and Democracy Meet: Muslims in Europe and in the United States. New York: Palgrave Macmillan, 2004.

Chicago Council on Global Affairs. Strengthening America: The Civic and Political Integration of Muslim Americans. Report of the Task Force on Muslim American Civic and Political Engagement.Chicago: The Council, 2007.

Esposito, John L., and Dalia Mogahed. Who Speaks for Islam?: What a Billion Muslims Really Think. New York: Gallup Press, 2008.

Hammond, Andrew. What the Arabs Think of America. Oxford; Westport, CT: Greenwood World Publishing, 2007.

Hasan, Asma G. American Muslims: The New Generation. New York and London: Continuum, 2000.
Huda, Qamar-ul. The Diversity of Muslims in the United States: Views as Americans. Washington, DC: United States Institute of Peace, 2006.

Pew Research Center. Muslim Americans: Middle Class and Mostly Mainstream. Washington DC: Pew Research Center, May 22, 2007.

Strum, Philippa, ed. Muslims in the United States: Identity, Influence, Innovation. Washington, DC: Woodrow Wilson International Center for Scholars, 2005.

Yazbeck, Yvonne Haddad, Jane I. Smith, and John L. Esposito, eds. Religion and Immigration: Christian, Jewish, and Muslim Experiences in the United States. Walnut Creek, CA: AltaMira Press, 2003.

## İnternet səhifələri

Bu kitabın nəşrində aşağıdakı İnternet səhifələrindən istifadə edilmişdir:

http://web.mit.edu/akpia/www (Harvard Universiteti və Massaçusets Texnologiya İnstitutunda İslam Memarlığı üzrə Ağa Xan proqramı)

http://fazlurrkhan.com (Fəzlur-Rəhman Xanın İnternet səhifəsi)

http://gammagammachi.org (Qamma Qamma Çi Qadın Cəmiyyəti)

http://hebaamin.com (Heba Aminin şəxsi veb səhifəsi)

http://ifyc.org (Dinlərarası Gənclik Mərkəzi)

http://icnyu.org (Nyu York Universiteti İslam Mərkəzi)

http://www.islamicity.com (IslamiCity)

http://kareemsalama.com (Kərim Salama)

http://loanmod.com (LoanMod.com)

http://mothermosque.org (Amerikanın Ana Məscidi)

http://pewresearch.org (Tribuna Araşdırma Mərkəzi)

http://pluralism.org (Harvard Universitetinin Plüralizm Layihəsi)

http://t-shirtat.com (Daliya Qanimin t-shirtat.com adlı veb səhifəsi)

## Fotolar

Aşağıdakılardan başqa bütün fotolar ©"Asoşeyted Press"ə (*Associated Press*) məxsusdur:
Səhifə 2: Əbu Patel;
14: (*aşağıda*) AİƏŞ [1];
29: © Mohammad Muhaimin Aminuddin;
30: (*yuxarıda, soldan sağa*) © Rikardo Barros, Serena Kim; (*aşağıda, soldan sağa*) Musa M.Şeyb; Nila Haşmi və Fatimə Monkuş; Kərim Salama; Kiran Xalid;
31: (*yuxarıda*) Kitti Aal; (*aşağıda*) Heba Amin;
32: Kitti Aal;
33: © Rikardo Barros;
35: Serena Kim;
36-37: (*hamısı*) Lena Xan;
38-39: (*hamısı*) Musa M. Şeyb;
40: (*solda*) Musa M. Şeyb; (*sağda*) Nila Haşmi və Fatimə Monkuş;
41-42: (*hamısı*) Karolina Rivera, "Elan" jurnalı;
43-44: (*hamısı*) Kərim Salama;
45-47: (*hamısı*) Kiran Xalid;
52-55: (*hamısı*) Ömər Xalidi, Harvard Universiteti və Massaçusets Texnologiya İnstitutunda İslam Memarlığı üzrə Ağa Xan proqramı;
56: (*solda, aşağıda*) Konqres Kitabxanası, Çap və Fotolar Şöbəsi; (*ortada, yuxarıda*) Konqres Kitabxanası, Çap və Fotolar Şöbəsi; (*ortada, aşağıda*) Yarrou Mamutun Çarles Vilson Piil tərəfndən çəkilmiş portreti Pensilvaniya Tarix Cəmiyyətinin Kolleksiyası, Filadelfiya Atvater Kent Muzeyi;
57: (solda, yuxarıda) Konqres Kitabxanası, Çap və Fotolar Şöbəsi; (*solda, aşağıda*) Amerikanın Ucalan Elmi Məbədi; (*ortada, mərkəzdə*) Konqres Kitabxanası, Çap və Fotolar Şöbəsi; (*sağda, yuxarıda*) Amerikanın Ana Məscidi;
58: (*ortada, yuxarıda*) Ömər Xalidi, Harvard Univeristeti və Massaçusets Texnologiya İnstitutunda İslam Memarlığı üzrə Ağa Xan proqramı; (*ortada, aşağıda*) Çarlz Bilal; (*sağda, yuxarıda*) Əbdür-Rəşid Məhəmməd.
59: (*solda, yuxarıda*) Qamma Qamma Çi Qadınlar Cəmiyyəti; (*sağda*) "Çikaqo Tribyun" qəzeti;
Əlavə, səhifə 2: (*yuxarıda*) Daliya Qanim; (*aşağıdan 3-cü*) Yasmin Xan Bayron.

## Kitabın ingiliscə nəşrində iştirak etmişlər

| | |
|---|---|
| İcraçı redaktor: | Corc Klak (*George Clack*) |
| Baş redaktor: | Maykl Cey Freydman (*Michael Jay Friedman*) |
| İdarəedici redaktor: | Çandli MakDonald (*Chandley McDonald*) |
| Köməkçi redaktor: | Rafael Kalis (*Raphael Calis*) |
| Foto redaktor/Dizayner: | Tim Braun (*Tim Brown*) |
| Yazarlar: | Hovard Sinkota, Debora Kon, Serena Kim, Meğan Loftus (*Howard Cincotta, Deborah Conn, Serena Kim, Meghan Loftus*) |
| Tədqiqatçı: | Martin Manninq (*Martin Manning*) |
| Fotolar üzrə tədqiqatçı: | Jan Stem (Joann Stem) |

http://america.gov/publications/books/being-muslim-in-america.html.

1 Amerika-İslam Əməkdaşlığı Şurası (ingiliscə, CAIR– Council on American-Islamic Relations)

Birləşmiş Ştatların Dövlət Departamenti/ Beynəlxalq İnformasiya Proqramları Bürosu